## MAŞTAĞADAKI SAVALAN YAŞAYIŞ MASSİVİNDƏ 28 NÖMRƏLİ TAM ORTA MƏKTƏBİN AÇILIŞI OLUB

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib

Sentyabrın 14-də Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsindəki Savalan yaşayış massivində 28 nömrəli tam orta məktəbin açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib. Dövlətimizin başçısı məktəbin rəmzi açılışını...



Bax səh. 2

## 100 İL ƏVVƏL BAKININ ERMƏNİ-BOLŞEVİK QÜVVƏLƏRİNİN İŞĞALINDAN AZAD EDİLMƏSİ TARİXİMİZİN ŞANLI QƏHRƏMANLIQ SALNAMƏSİDİR

Tarix Azərbaycan və Türkiyənin çoxsaylı dostluq, qardaşlıq və həmrəylik nümunələrinə şahidlik edib. Belə qürur və iftixar dolu anlar Azərbaycan-Türkiyə qardaşlığının şanlı səhifələrini təşkil edir. Bu cür tarixi anlardan biri də 15 sentyabr 1918-ci ildə Azərbaycanın Milli Ordusunun Nuru Paşanın rəhbərlik etdiyi...



Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 15 sentyabr 2018-ci il, şənbə / № 174 (5301). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev TOTAL şirkətinin baş icraçı direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də TOTAL şirkətinin baş icraçı direktoru Patrik Puyaneni qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüş zamanı TOTAL şirkəti ilə SOCAR arasında neft-qaz sahəsində əməkdaşlığın perspektivləri, "Abşeron" yatağının birgə işlənilməsi çərçivəsində hazırkı işlərin gedişi, neft-qaz strukturunda digər yataqların birgə işlənilməsi imkanları ilə bağlı məsələlər müzakirə edilib.



# Prezidentin iş günü

Prezident İlham Əliyev "Azərbaycan" qəzetinin kollektivini təbrik edib. Təbrikdə deyilir: "Sizi "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir və fəaliyyətinizdə uğurlar arzulayıram.

Müstəqil dövlətçilik tariximizdə öz yeri olan, milli mətbuatımızın inkişafına əvəzsiz töhfələr verən "Azərbaycan" qəzeti 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamışdır. Cəmi iki il işıq üzü görmüş və birinci respublikanın süqutu ilə fəaliyyətini dayandırmış qəzet nəşr olunduğu qısa dövr ərzində görkəmli ziyalıların, tanınmış ictimaiyyət nümayəndələrinin tribunasına çevrilərək, xalqımızın maariflənməsində, müstəqillik ideallarının gerçəkləşməsində, mədəniyyətinin yüksəlişində, mənəvi dəyərlərinin qorunmasında önəmli rol oynamışdır.

XX əsrin sonlarında ölkəmiz yenidən müstəqilliyə qovuşduqdan sonra nəşri bərpa olunmuş "Azərbaycan" qəzeti öz ənənələrini davam etdirərək, milli dövlət quruculuğu prosesində fəal iştirakı ilə seçilmişdir. Demokratik inkişafın tərkib hissəsi kimi söz və məlumat azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün əlverişli şəraitin yaradılması milli mətbuatımızın, o cümlədən "Azərbaycan" qəzetinin öz missiyasını daha səmərəli şəkildə yerinə yetirməsinə yeni imkanlar açmışdır. Qəzet peşəkarlıq, obyektivlik və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etmiş, ölkəmizin sosial-iqtisadi tərəqqisi, vətəndaş cəmiyyətinin formalaşması, milli həmrəyliyin möhkəmlənməsi və digər sahələrdə həyata keçirilən dövlət siyasəti barədə həqiqətlərin Azərbaycan ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir.

Respublikamızın dinamik inkişaf etdiyi, cəmiyyət həyatının bütün sahələrinin yeniləşdiyi müasir dövrdə, habelə çoxsaylı informasiya resurslarının fəaliyyəti ilə şərtlənən rəqabət mühitində mətbuatımız ümummilli məsələlərin həlli, cəmiyyətimizin rifahı naminə üzərinə düşən vəzifələri daha böyük əzmlə yerinə yetirməyi bacarmalıdır. Əminəm ki, "Azərbaycan" qəzetinin kollektivi də qarşıdakı dövrdə bu çətin və şərəfli işin öhdəsindən uğurla gələcək".

◆ ❖ ◆

Prezident İlham Əliyev "Azərbaycan" qəzetinin əməkdaşlarına "Əməkdar jurnalist" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev "Azərbaycan" qəzeti əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Bəxtiyar Yusif oğlu Sadıqovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Bayıl-Bibiheybət-Lökbatan kollektorunun inşası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.



## AZƏRBAYCANIN BAŞ NAZİRİ İSRAİLİN MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞÜB

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov sentyabrın 14-də İsrail Dövlətinin müdafiə naziri Aviqdor Liberman ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Novruz Məmmədov İsrailin müdafiə nazirinin Azərbaycana səfərinin ikitərəfli...

Bax səh. 3

## ƏNVƏR PAŞANIN NƏVƏSİ ARZU ƏNVƏR ƏROĞAN: 1918-Cİ İLDƏ BAKIDA ERMƏNİ DAŞNAKLARI İLƏ MÜBARİZƏ TÜRK ƏSGƏRİ ÜÇÜN VİCDAN BORCUNA ÇEVRİLMİŞDİ

Azərbaycan mənim üçün fərqli bir ölkədir. Burada özümü vətənimdəki kimi hiss edirəm. Mənim qəlbimin bir hissəsi daim bu ölkədədir. Babalarım Ənvər paşanın və Nuru paşanın ruhu Azərbaycandadır. Bu fikirləri AZƏRTAC-a müsahibəsində Ənvər paşanın nəvəsi Arzu Ənvər Əroğan bildirib. Osmanlı dövlətinin 1918-ci ildə Azərbaycana göstərdiyi kömək barədə danışan Arzu xanım qeyd edib ki, erməni-daşnak, bolşevik qüvvələri Azərbaycanla Anadolu arasında o dövrdə inkişaf etməkdə olan münasibətlərə zərbə vurmaq üçün işğalçılıq siyasətinə əl atdılar. Bu zaman Azərbaycandan Ənvər paşaya müraciətlər başladı və bütün maneələrə baxmayaraq, bu çağırışlar qısa müddətdə Qafqaz İslam Ordusunun təşkili və fəaliyyətə başlaması ilə cavablandırıldı: "Babam Ənvər paşanın bu qərarı verməsinə yalnız bir səbəb var idi...

Bax səh. 5



## BMT İLƏ AZƏRBAYCAN ARASINDA REALLAŞDIRILAN LAYİHƏLƏR UĞURLA İCRA OLUNUR

Sentyabrın 14-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov ölkəmizdə səfərdə olan BMT-nin baş katibinin müavini, BMT-nin Təlim və Tədqiqatlar İnstitutunun icraçı direktoru...

Bax səh. 3

## Bakının bəzi ərazilərində avtomobillərin və vətəndaşların hərəkətinə məhdudiyyət tətbiq olunacaq

Sentyabrın 15-də dövlət tədbiri ilə əlaqədar Bakının bəzi ərazilərində avtomobillərin və vətəndaşların hərəkətinə məhdudiyyət tətbiq olunacaq.

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Parlament prospekti, Şəhidlər xiyabanı, Neftçilər prospekti, Azadlıq meydanı və buraya yaxın ərazilərdə dövlət tədbirləri başa çatanadək hərəkət məhdudlaşdırılacaq.

### Bakının işğaldan azad olunmasının 100 illiyinə həsr edilmiş sərgi – "Millət sizə minnətdardır"

Sentyabrın 14-də Milli Azərbaycan Tarixi Muzeyində Bakının erməni-daşnak qüvvələrinin işğalından azad olunmasının 100 illiyinə həsr edilmiş...



Bax səh. 4

### Milli Məclisdə "Siyasi plüralizm və parlament təcrübəsi" mövzusunda "dəyirmi masa" keçirilib

Sentyabrın 14-də Milli Məclisdə Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşkilatçılığı və parlamentdə təmsil olunan siyasi partiya nümayəndələrinin...



Bax səh. 5

### YAP İcra katibinin müavini Siyavuş Novruzov Monteneqro Sosialistlərinin Demokratik Partiyasının nümayəndə heyəti ilə görüşüb

Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin...



Bax səh. 5

### YAP Suraxanı rayon təşkilatının yaradılmasının 25-ci ildönümü münasibətilə tədbir keçirilib

Sentyabrın 14-də Yeni Azərbaycan Partiyasının (YAP) Suraxanı rayon təşkilatının yaradılmasının 25-ci ildönümü münasibətilə tədbir keçirilib...



Bax səh. 5

# Maştağadakı Savalan yaşayış massivində 28 nömrəli tam orta məktəbin açılışı olub

## *Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib*

Sentyabrın 14-də Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsindəki Savalan yaşayış massivində 28 nömrəli tam orta məktəbin açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsib.

Məktəbin direktoru Qənirə Əmircanova Prezident İlham Əliyevə yeni məktəb binasında yaradılan şərait barədə məlumat verib. Bildirilib ki, bu təhsil ocağının təməli 2017-ci ilin sentyabrında qoyulub. Məktəbin həyətində genişmiqyaslı abadlıq və quruculuq işləri aparılıb, açıq havada idman meydançası yaradılıb. Qeyd olunub ki, Savalan yaşayış massivinin əhalisinin sayı 25 min nəfərdən çoxdur. Əvvəllər yaşayış massivində məktəb olmadığından şagirdlər təhsillərini rayonun Maştağa, Zabrat və digər qəsəbələrindəki təhsil ocaqlarında alırdılar. Üçmərtəbəli yeni məktəb binasının inşaat işləri yüksək keyfiyyətlə yerinə yetirilib.









Sonra dövlətimizin başçısı məktəbin bir qrup müəllim və şagirdi ilə görüşüb.

Azərbaycan Prezidenti görüşdə çıxış edib: **“Sabahınız xeyir olsun, mən sizi ürəkdən salamlayıram və qarşıdan gələn yeni dərs ili münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Yeni dərs ili ərəfəsində biz Maştağa qəsəbəsinin Savalan yaşayış massivində yeni məktəbin açılışına toplaşmışıq. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm.**

**Bu məktəb sakinlərin xahişi ilə tikilib. Mənə verilən məlumata görə, bu yaşayış massivində məktəb yox idi. Ona görə həm uşaqlar, həm valideynlər böyük əziyyət çəkirdilər. Göstəriş verildi və qısa müddət ərzində belə gözəl məktəb tikildi. 960 şagird yerlik məktəbdə indi oxumaq, işləmək üçün bütün şərait yaradılıb. Ərazisi də böyükdür. Böyük idman meydançası var. Yəni, burada işlər ən yüksək səviyyədə aparılıb. Hesab edirəm, bu gözəl təşəbbüs bir daha onu göstərir ki, Azərbaycanda təhsilə çox böyük diqqət yetirilir.**

**Əlbəttə, harada ki, məktəbin inşasına ehtiyac var, biz orada mütləq məktəb tikintisi ilə məşğul oluruq, o cümlədən bu yerdə. Demək istəyirəm ki, bu il bütövlükdə Bakı şəhərində 19 məktəb tikilib və əsaslı təmir olunub. Demək olar ki, Bakı şəhərinin məktəblərinin əksəriyyəti artıq yaxşı vəziyyətdədir. Hələ də təmirə ehtiyacı olan məktəblər var və biz onları gələn illərdə təmir edəcəyik. Ölkəmizdə isə bu il 200-dən çox məktəb tikilib və təmir olunub. Ucqar kəndlərdə, kiçik kəndlərdə 137 modul tipli məktəb tikilib. O kəndlərdə ümumiyyətlə məktəblər qəzalı vəziyyətdə idi. Qəzalı məktəblərin sökülməsi və onların yerində yeni məktəblərin tikintisi proqramı da ümid edirəm ki, gələn il başa çatacaq. Beləliklə, Azərbaycanda məktəb fondu ən müasir standartlara cavab verəcək. İstəyirəm ictimaiyyət onu da bilsin ki, son 15 il ərzində Azərbaycanda 3 mindən çox məktəb tikilib və əsaslı təmir edilib. Bu, təhsil sahəsinə çox böyük töhfədir.**

**Məktəbdə uşaqlar yaxşı oxumalıdır. Bir halda ki, belə gözəl şərait var, burada təhsilin keyfiyyəti də yüksək olmalıdır. Məktəb, eyni zamanda, müəllimlərin iş yeridir və müəllimlərin şəraiti də yaxşılaşır. Müəllim olmaq istəyənlərin sayı artır, müəllim peşəsinin hörməti artır və bu, çox sevindirici haldır. Çünki müəllim uşaqların, gənclərin tərbiyə olunmasında valideynlərlə bərabər aparıcı rol oynayır.**

**Bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Mənə verilən məlumata görə, bu il 500-dən artıq bal toplayan 2 mindən çox abituriyent müəllim peşəsini seçib. Bu, müəllim peşəsinə olan marağın ən bariz nümunəsidir. Müqayisə üçün deməliyəm ki, 2016-cı ildə 500-dən çox bal toplayan abituriyentlərin cəmi 1 nəfəri müəllim peşəsini seçmişdi, indi isə 2 min. Bu, ilk növbədə, məktəb fondunun müasirləşdirilməsini, məktəblərin əksəriyyətində gözəl şəraitin olmasını, müəllimlərin məişət problemlərinin həllini göstərir. Son illər ərzində müəllimlərin maaşları əhəmiyyətli dərəcədə artıb və cəmiyyətdə müəllimə olan ənənəvi hörmət bərpa edilir. Bu, çox sevindirici haldır. Ona görə müəllimlərin problemlərinin həlli üçün gələcəkdə də işlər aparılacaq. Təhsil sahəsində aparılan köklü islahatlar səmərə verir, təhsilin keyfiyyəti artır. Biz bunu müxtəlif göstəricilərdə görürük və ümid edirəm ki, bu uğurlu proses bundan sonra da davam etdiriləcəkdir.**

**Uşaqlar isə yaxşı oxumalıdırlar, gələcəkdə cəmiyyətdə layiqli yer tutmaq üçün, ilk növbədə, gərək bilikli, savadlı olsunlar. Azərbaycanda ümumi savadlılıq səviyyəsi 100 faizə yaxındır. Bu, çox gözəl göstəricidir. Bu gün dünyada savad, bilik, texnologiyalar hər şeyi həll edir. Baxın inkişaf etmiş ölkələrin vəziyyətinə. Onların arasında ancaq yüksək texnologiyalara malik olan ölkələr var. Təbii ehtiyatlar, neft-qaz resursları - bunlar sadəcə olaraq bir vasitədir. Ölkələri inkişafa doğru aparan əsas amillər savad, bilik, texnologiyalar, innovasiyalar, yeniliklərdir. Ona görə Azərbaycanda gənclər çox bilikli, savadlı olmalıdırlar. Azərbaycanda müasir texnologiyalara çox böyük dəstək verilir, bu, dövlət siyasətidir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı olmadan müasir cəmiyyətlər uğurlu fəaliyyət göstərə bilməz. Ona görə, ilk növbədə, uşaqlar maraqlı olmalıdırlar ki, yaxşı oxusunlar və gələcəkdə həm özləri üçün gözəl həyat qursunlar, həm ölkəmizin inkişafına töhfə versinlər. Əlbəttə ki, gənclərin tərbiyəsi ilə bağlı həm müəllimlər, həm valideynlər ciddi məşğuldurlar və mən bunu alqışlayıram. Azərbaycan gəncləri vətənpərvər gənclərdirlər və bundan sonra da bizim gənclərimiz vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə almalıdırlar.**

**Bilirsiniz ki, bu gün ölkəmizin dünyadakı rolu, əhəmiyyəti artır. Bölgədə Azərbaycanın iştirakı olmadan heç bir layihə icra edilə bilməz. Yaşadığımız regionda bizim siyasətimizdən, qərarımızdan çox şey asılıdır. Əlbəttə, bu amili nəzərə alaraq Azərbaycana təsir etmək istəyən xarici qüvvələrin də sayı az deyil. Azərbaycan vətəndaşları bunu bilirlər. Ancaq bizim çox güclü siyasi iradəmiz qoymur ki, Azərbaycanı hansısa avantüralara, yaxud da bizim milli maraqlarımıza uyğun olmayan təşəbbüslərə çəksinlər. Ona görə ki, bizim çox güclü siyasi iradəmiz, güclü iqtisadi potensialımız var. Biz müstəqil siyasət aparırıq, heç kimdən asılı deyilik. Hesab edirəm, Prezident kimi fəaliyyətim dövründə bu əsas nəticələrdən biridir ki, bu gün Azərbaycan tam müstəqil siyasət aparır. O siyasət ki, milli maraqlar və ənənəvi dəyərlər üzərində qurulubdur və elə etməliyik ki, gələcək nəsil də öz gələcəyini bu istiqamətdə görsün. Gələcək nəsil də, ilk növbədə, vətənpərvər olmalıdır, milli ruhda tərbiyə almalıdır, öz doğma Vətəninə bağlı olmalıdır, bizim qədim ənənələrə sadiq olmalıdır və bilikli, savadlı olmalıdır. Belə olan halda ölkəmizin gələcəyi də parlaq olacaqdır. Belə olan halda Azərbaycan daim müstəqil siyasət aparacaq. Çünki bizim siyasətimiz həyatda öz əksini tapıb. İndi baxın, dünyanın müxtəlif yerlərində qanlı toqquşmalar, müharibələr, iqtisadi-sosial böhranlar, inqilablar geniş vüsət alıb. Təhlükə mənbələri getdikcə artır. Getdikcə daha çox narahatedici məqamlar üzə çıxır. Ancaq Azərbaycan sabitlik məkanıdır. Azərbaycanda insanlar sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycanda sosial və iqtisadi məsələlər öz həllini tapır. İndi baxın, ölkəmizə nə qədər böyük investisiyalar qoyulur. Əgər biz təkcə təhsil sahəsini götürsək, üç min məktəbin tikintisi böyük maliyyə vəsaiti tələb edir. Yollar, su xətləri, elektrik xətləri, qazlaşdırma, hərbi gücümüzün möhkəmləndirilməsi, energetika və nəqliyyat layihələrimiz. Bütün bunları biz öz hesabımıza etmişik. Bu gün dünya miqyasında, xüsusilə yaşadığımız regionda Azərbaycan seçilən ölkələrdəndir. Sülh, əmin-amanlıq, inkişaf, sosial rifah Azərbaycanda təmin edilir və bundan sonra da təmin olunacaq. Çünki bizim gələcəyimizlə bağlı heç bir narahatlıq, heç bir şübhə yoxdur. Çünki biz bundan sonra da ancaq inkişaf yolu ilə gedəcəyik.**

**Bunu təmin etmək üçün biz, ilk növbədə, daha güclü olmalıyıq. Bir daha demək istəyirəm ki, bizim siyasətimizə heç bir qüvvə təsir edə bilməz. Bunu son 15 il ərzindəki vəziyyət dəfələrlə təsdiqləyib. Siz gənclər gələcəkdə Azərbaycanı idarə edəcəksiniz. Ölkəmizin, xalqımızın taleyi sizdən asılı olacaq. Ona görə siz həmişə bilməlisiniz ki, ilk növbədə, milli maraqlardır, ilk növbədə, Vətənin xoşbəxtliyidir, ilk növbədə, müstəqil siyasət aparılmalıdır. Əlbəttə ki, valideynlər, müəllimlər, bütövlükdə cəmiyyət bu işdə öz rolunu oynayır və oynayacaq. Belə gözəl məktəbdə oxumaq və tərbiyə almaq üçün bütün şərait var.**

**Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun”.**





* * *

Dövlətimizin başçısına yeni məktəb binasının inşasına görə minnətdarlığını bildirən valideyn Hacıbala Babayev deyib: **“Cənab Prezident, Maştağa sakinləri adından Sizi ürəkdən salamlayır və Sizə “Xoş gəlmisiniz!” deyirik.**

**Cənab Prezident, bu gün bizim çoxdan arzuladığımız bir gündür. Bu yeni təhsil ocağı övladlarımızın xoş gələcəyini göstərir.**

**Cənab Prezident, biz bu münasibətlə Sizə Maştağa qəsəbəsinin və yeni yaşayış massivinin sakinləri adından ürəkdən “Çox sağ olun!” deyirik. Sizi əmin edirik ki, bu məktəbdə təhsil alacaq gənclərimiz gələcəkdə dövlətinə, millətinə, Prezidentinə layiqli övladlar olacaqlar.**

**Uzun illərdir ki, cənab Prezident, bizim övladlarımız çətinliklə uzaq məsafə qət edərək təkcə Maştağa qəsəbəsindəki orta məktəblərdə deyil, rayonumuzun digər qəsəbələrindəki məktəblərdə də təhsil alırdılar. Bu da övladlarımız üçün çətinlik yaradır, biz valideynləri narahat edirdi. Çox sağ olun ki, cənab Prezident, Sizin təhsilə və biz sakinlərə göstərdiyiniz qayğının nəticəsində bu narahatlığımıza son qoyuldu.**

**Cənab Prezident, biz daim Sizin daxili və xarici siyasətinizi dəstəkləyirik və həmişə Sizinləyik.**

**Möhtərəm cənab Prezident, biz sakinlər adından Sizə, Sizin ailənizə, övladlarınıza cansağlığı, uzun ömür, işlərinizdə yeni-yeni uğurlar, müvəffəqiyyətlər arzulayırıq. Allah Sizi qorusun”.**

**Prezident İlham Əliyev:** Sağ olun.

* * *

Dövlətimizin başçısı müəllimlərlə söhbət edib.

**Müəllimə Arizə Mahmudova:** Cənab Prezident, Sizi salamlayırıq, “Xoş gəlmisiniz!” deyirik. Tikilən bu möhtəşəm bina bizim narahatlığımıza son qoydu. Buna görə də Sizə dərindən minnətdarıq, Allah Sizi var eləsin!

**Prezident İlham Əliyev:** Çox sağ olun. Burada neçə müəllim işləyir?

**Direktor Qənirə Əmircanova:** 70 müəllim fəaliyyət göstərəcək. 960 nəfərlik şagird heyəti nəzərdə tutulub. İnşallah, çox yaxın müddət ərzində məktəb fəaliyyətə başlayacaq.

**Prezident İlham Əliyev:** Bəli, mütləq. Müəllimlər başqa məktəblərdən gəliblər.

**Qənirə Əmircanova:** Bəli, nümunəvi məktəblərdən seçiləcək. Çünki bu cür məktəbdə elə müəllimlər işləməlidirlər ki, həqiqətən layiqli olsunlar.

**Prezident İlham Əliyev:** Təhsilin səviyyəsi yüksək olmalıdır. Uşaqlar da gedib Maştağa qəsəbəsində oxuyurdular.

**Qənirə Əmircanova:** Bəli, kənar yerdə oxuyurdular.

**Prezident İlham Əliyev:** Məsafə də uzaqdır. Hər gün get-gəl çətinlik yaradırdı. Savalan yaşayış massivində son illər əhali artıb.

**Qənirə Əmircanova:** Bəli, 30 minə yaxınlaşıb, 25 mindən artıqdır.

**Prezident İlham Əliyev:** Yəqin ki, gələcəkdə bir məktəbin tikintisinə də ehtiyac olacaq.

**Qənirə Əmircanova:** Bizim orada sahəmiz də var. Planlaşdırılır, hərtərəfli perspektiv düşünülüb, ehtiyac olarsa tikilər. Bütün sakinlər adından Sizə sonsuz dərəcədə minnətdarıq.

**Prezident İlham Əliyev:** Yaxşı ki, siz bu məsələni qaldırdınız. Mənə məlumat çatan kimi dərhal göstəriş verdim ki, tezliklə məktəb tikilsin. Bu, bir daha onu göstərir ki, bu məsələlər gərək ictimaiyyət tərəfindən qaldırılsın. Mən dəfələrlə çıxışlarımda demişəm ki, Azərbaycanda ictimai nəzarət daha da güclü olmalıdır. Çünki ölkəmizdə hələ də bizi narahat edən məsələlər kifayət qədər var və onları həll etmək üçün gərək bizdə məlumat olsun. İctimai nəzarət, ictimaiyyətin fəallığı olmadan bəzi hallarda bu məlumat da bizə çatmır. Ona görə bir daha bu fürsətdən istifadə edərək Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm. Öz xahişlərini, onları narahat edən məsələləri çatdırsınlar ki, biz də onları həll edək.

**Qənirə Əmircanova:** Biz də çox sevinirik ki, Siz buna dərhal reaksiya verirsiniz. Yəni, bunu arxa plana keçirmirsiniz. Elə bil ki, bu, Sizin stolunuzun üstündə gündəlik bir məsələdir. Bu, sakinləri, bütün xalqı, bütün milləti çox sevindirir.

**Prezident İlham Əliyev:** Belə də olmalıdır. Mənim işim elə bundan, mövcud olan problemləri həll etməkdən ibarətdir ki, insanları narahat edən məsələlər aradan götürülsün. İnsanlar daha da yaxşı, rahat yaşasınlar və daha da çox iş görə bilək. Ona görə hesab edirəm ki, bu məktəbin tikintisi belə gözəl təşəbbüsün təzahürüdür. Vətəndaşlar müraciət ediblər, biz isə tezliklə göstəriş verib bunu təşkil etmişik və bu gün burada yeni dərs ili ərəfəsində bərabər sevinirik.

**Qənirə Əmircanova:** Siz bizim sevincimizə qatıldığınız, bizimlə bərabər sevindiyiniz üçün biz ikiqat sevinirik.

**Prezident İlham Əliyev:** Bilirsiniz, mən qeyd etdim ki, bu il Bakı şəhərində 19 məktəb istifadəyə verilib. Bəziləri tikilib, bəziləri əsaslı təmir edilib. Adətən yeni dərs ili ərəfəsində mən məktəblərin vəziyyəti ilə tanış oluram. Əvvəlki illərdə adətən bir məktəb seçilirdi ki, biz bu məktəbdə öz sözümüzü deyək. Bu il mən xüsusilə bu məktəbi seçdim. Çünki bu məktəbin çox özəl yeri var, bax, dediyim bu məsələlərə görə. Ona görə bir daha sizi təbrik edirəm.

* * *

Daha sonra Prezident İlham Əliyev məktəbdə yaradılan şəraitlə tanış olub.

Diqqətə çatdırılıb ki, təhsil müəssisəsi 960 şagird yerlikdir. Burada sinif otaqları bütün zəruri dərs ləvazimatları ilə təchiz edilib. Məktəbdə birinci sinif şagirdləri üçün hələlik 5 sinfin açılması nəzərdə tutulur. Onların hər birində 24 şagirdin təhsil alması planlaşdırılıb. Ehtiyac yarandığı halda əlavə siniflərin açılması üçün də imkanlar var. Birinci siniflərin şagirdləri dərslik və məktəbli çantaları ilə təmin olunublar. Ümumilikdə, məktəbdə kimya, fizika, biologiya, hərbi, informatika, texnologiya, fənn kabinetləri və laboratoriyalar, müəllimlər, tibb, arxiv otaqları var. Məktəbin fizika, kimya və biologiya laboratoriyalarında şagirdlərin nəzəri biliklərini artırmaları üçün hərtərəfli imkan yaradılıb. Gənclərin çağırışaqədərki hazırlıq kabineti də zəruri avadanlıqla təchiz olunub.

Təhsil müəssisəsindəki əmək təlimi otaqlarında şagirdlər bacarıqlarını nümayiş etdirə və peşə vərdişlərini üzə çıxara biləcəklər. Məktəbin zəngin kitabxanası da müasir səviyyədə qurulub. Şagirdlərin ixtiyarına veriləcək oxu zalında mütaliə etmək üçün hər cür şərait var. 200 nəfərlik akt zalında isə müxtəlif kütləvi tədbirlərin keçirilməsi üçün bütün imkanlar yaradılıb. Şagirdlər ümumi sahəsi 540 kvadratmetr olan və bütün zəruri avadanlıqla təchiz edilən zalda idmanla məşğul ola biləcəklər.

Burada yaradılan şərait bir daha sübut edir ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə təhsilin inkişafı istiqamətində aparılan islahatlar bu sahənin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə nəticələnib. Bütün bu işlər həm də onu göstərir ki, Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı var. Bu, hər şeydən əvvəl Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi, gənc nəslin müasir, intellektual və savadlı yetişməsi üçün dövlətin həyata keçirdiyi siyasətin əsas prioritetlərindən biridir. Odur ki, son illər təhsil sahəsinə qoyulan investisiyalar, o cümlədən yeni-yeni məktəb binalarının inşası, mövcud təhsil müəssisələrində yeni korpusların tikilməsi və əsaslı təmirin aparılması mühüm əhəmiyyət kəsb edir.

* * *

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycanın Baş naziri İsrailin müdafiə naziri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov sentyabrın 14-də İsrail Dövlətinin müdafiə naziri Aviqdor Liberman ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Novruz Məmmədov İsrailin müdafiə nazirinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin daha da genişləndirilməsi baxımından əhəmiyyətli olacağına əminliyini ifadə edib. **"Bu gün Azərbaycan-İsrail münasibətləri yüksək səviyyədədir. Ölkələrimiz müxtəlif sahələrdə əməkdaşlıq edirlər. Azərbaycanın müstəqilliyinin bərpasından sonrakı illərdə biz iki ölkə arasında yaxşı əlaqələr qura bilmişik"**, - deyə Baş nazir vurğulayıb.

Azərbaycan-İsrail münasibətlərinin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin, görüşlərin önəmli olduğunu qeyd edən Novruz Məmmədov bildirib ki, bu əlaqələrin inkişafında hər iki ölkə maraqlıdır. Ölkələrimiz arasında münasibətlərin inkişafı regional və beynəlxalq təhlükəsizlik baxımından da önəmlidir.

Azərbaycanın tolerantlıq ənənələrindən danışan Baş nazir Novruz Məmmədov qeyd edib ki, ölkəmizdə müxtəlif xalqların, dinlərin nümayəndələri dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayırlar.

Azərbaycana hər səfəri zamanı böyük məmnunluq hissi keçirdiyini vurğulayan İsrailin müdafiə naziri Aviqdor Liberman ölkəmizdə özünü doğma evindəki kimi hiss etdiyini qeyd edib.

Ölkələrimiz arasında uzun illərdir mehriban və möhkəm əlaqələrin mövcud olduğunu qeyd edən müdafiə naziri bildirib ki, bu münasibətlərin inkişafında Ulu öndər Heydər Əliyevin xüsusi rolu olub. Hazırda hər iki ölkə rəhbərlərinin səyləri nəticəsində bu əlaqələr inkişaf edir.

Görüşdə hərbi sahə ilə yanaşı, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın və təcrübə mübadiləsinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# BMT ilə Azərbaycan arasında reallaşdırılan layihələr uğurla icra olunur



Sentyabrın 14-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov ölkəmizdə səfərdə olan BMT-nin baş katibinin müavini, BMT-nin Təlim və Tədqiqatlar İnstitutunun icraçı direktoru Nikhil Set ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Əli Əhmədov Azərbaycanla BMT arasında mövcud əməkdaşlıq münasibətlərini və əlaqələrin möhkəmləndirilməsi istiqamətində atılan addımları yüksək qiymətləndirib.

Baş nazirin müavini BMT ilə Azərbaycan arasında reallaşdırılan layihələrin uğurla icra olunduğunu bildirib. O, belə layihələrin bir çoxunun Dayanıqlı İnkişafla bağlı olduğunu vurğulayaraq, Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində həyata keçirilən tədbirlərin reallaşmasında BMT-nin verdiyi dəstəyin böyük önəm kəsb etdiyini diqqətə çatdırıb.

Qeyd edilib ki, Prezident İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb və Şuranın daimi əsaslarla fəaliyyət göstərən katibliyi formalaşıb. Azərbaycan Hökuməti Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün bütün qüvvələrini səfərbər edib və Baş nazirin müavini Milli Əlaqələndirmə Şurasına sədr təyin olunub. Milli Əlaqələndirmə Şurası qısa vaxt ərzində bir çox mühüm işlər görüb.

Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov 2019-cu ildə Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycan Respublikasının ikinci Könüllü Milli Hesabatının təqdim ediləcəyini də bildirib.

BMT-nin baş katibinin müavini, BMT-nin Təlim və Tədqiqatlar İnstitutunun icraçı direktoru Nikhil Set uzun müddətdir Azərbaycana səfərə gəlməsini arzuladığını söyləyib. Azərbaycanda vətəndaşların mövcud potensialının yaxşı dəyərləndirildiyini vurğulayan qonaq səfərin onda xoş təəssürat yaratdığını vurğulayıb. O, BMT-nin bir sıra ölkələrdə insanlara daha yaxşı həyat şəraiti təmin etmək məqsədilə müxtəlif layihələr həyata keçirdiyini söyləyib.

Azərbaycanın Cenevrədəki BMT bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi səfir Vaqif Sadıqov görüşdə iştirak edib.

# 100 il əvvəl Bakının erməni-bolşevik qüvvələrinin işğalından azad edilməsi tariximizin şanlı qəhrəmanlıq salnaməsidir

*Tariximizin şərəfli və qürurlu səhifələrindən biri olan bu möhtəşəm zəfər Türkiyə-Azərbaycan qardaşlığının bariz nümunəsi və təntənəsidir*

*Tarix Azərbaycan və Türkiyənin çoxsaylı dostluq, qardaşlıq və həmrəylik nümunələrinə şahidlik edib. Belə qürur və iftixar dolu anlar Azərbaycan-Türkiyə qardaşlığının şanlı səhifələrini təşkil edir. Bu cür tarixi anlardan biri də 15 sentyabr 1918-ci ildə Azərbaycanın Milli Ordusunun Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-daşnak, eser-menşevik və bolşeviklərdən azad etməsidir. Xalqımız öz şanlı tarixinin qürur dolu və parlaq səhifələrindən birini - 1918-ci ilin 15 sentyabrında Bakının erməni-bolşevik qüvvələrinin işğalından azad edilməsinin 100 illiyini böyük ruh yüksəkliyi və qürur hissi ilə qeyd edir. Ümumiyyətlə, bəhs olunan şanlı tarixin - Bakının erməni-daşnak, eser-menşevik və bolşeviklərdən azad edilməsinin əhəmiyyətini daha yaxşı anlamaq üçün həmin tarixi dövrə aid olan bir sıra məsələlərə kompleks yanaşmaq məqsədəmüvafiqdir.*






### AZƏRBAYCAN ƏRAZİLƏRİNİN ERMƏNİ-BOLŞEVİK İŞĞALINDAN AZAD EDİLMƏSİ PROSESİNƏ GƏNCƏDƏN BAŞLANDI

Məlum olduğu kimi, 28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) öz müstəqilliyini elan etməsindən sonra Azərbaycanla Osmanlı Türkiyəsi arasında Batumda 4 iyun 1918-ci il tarixində strateji əhəmiyyət kəsb edən mühüm bir müqavilə imzalandı. Bundan sonra Nuru Paşanın rəhbərliyi ilə V Qafqaz diviziyası Gəncəyə gələrək Azərbaycan ordusunun quruculuğunda iştirak etməyə başladı. V Qafqaz diviziyası ilə o vaxt Azərbaycan Silahlı Qüvvələrinin əsasını təşkil edən Müsəlman Korpusu Qafqaz İslam Ordusu adı altında birləşdi və bəhs olunan silahlı birləşmələr Azərbaycanın istiqlaliyyəti və suverenliyinin qorunub saxlanması istiqamətində fəaliyyət göstərməyə başladı.

Əlbəttə ki, bu ordunun qarşısında duran ilk hədəf Gəncədəki ermənilərin tərk-silah edilməsi idi. Bəllidir ki, Gəncədə məskunlaşmış ermənilər separatist fəaliyyətlə məşğul idilər və müxtəlif qruplaşmalar formalaşdırmaqla təxribat törətmək məqsədi əsasında hərəkət edirdilər. Buna baxmayaraq, nizamlı və planlı tədbirlər sayəsində Gəncədəki ermənilərin tərk-silah edilməsi mümkün oldu. Başqa sözlə, Azərbaycan ərazilərinin erməni-bolşevik işğalından azad edilməsinə Gəncədən başlanıldı. Bir neçə şəhər - inzibati ərazi vahidi (Göyçay, Ağsu, Kürdəmir, Şamaxı) azad edildi. Artıq qarşıda müstəqil Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən Bakının azad edilməsi hədəfi dayanırdı.

### 1918-Cİ İL SENTYABRIN 15-DƏ AZƏRBAYCANIN MİLLİ ORDUSU QAFQAZ İSLAM ORDUSU İLƏ BİRLİKDƏ BAKINI ERMƏNİ-BOLŞEVİK DƏSTƏLƏRİNDƏN AZAD ETDİ

Qeyd etmək lazımdır ki, strateji əhəmiyyətinə görə dövrün güc mərkəzlərinin marağında və diqqət mərkəzində olan Bakının azad edilməsi heç də asan deyildi. Həmin dövrdə Bakının əhəmiyyəti xeyli artmışdı, çünki o zaman dünya neftinin 50 faizi Bakıda çıxarılırdı. Şimaldan bolşeviklər, cənubdan ingilislər Bakıya can atırdılar. I Dünya müharibəsinin əvvəllərində müxtəlif güc mərkəzlərinin Bakını ələ keçirmək planları var idi. Bu kontekstdə Azərbaycana iqtisadi maraqlara görə yox, həmrəylik məqsədilə can atan yeganə qüvvə Türkiyə idi. Dolayısıyla, bu şəhərdə strateji nəzarəti əldə saxlamaq mövcud güc mərkəzlərinin əsas hədəflərindən biri idi. Dövrün ingilis sənədlərində yazılmışdı ki, Bakı öz strateji əhəmiyyətinə görə bütün Cənubi Qafqazın açarıdır. Beləliklə, olduqca mürəkkəb situasiyanın fonunda bu hədəf istiqamətində strateji əməliyyat planı müəyyənləşdirildi və müvafiq addımlar atıldı. Daha sonra Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa Türkiyənin Şərq Orduları Qrupuna yardım məqsədilə müraciət etdi. Buna görə 15-ci diviziyadan təchizatı yaxşı olan 56-cı alay və 36-cı Qafqaz diviziyasından 106-cı Qafqaz alayı 15-ci diviziyanın komandiri polkovnik-leytenant Süleyman İzzət bəyin komandanlığında Qafqaz İslam Ordusunun tərkibinə daxil olmaq üçün 3 sentyabr 1918-ci ildə Gümrüdən yola düşdü. 15-ci diviziyanın qərargahı ilə birlikdə boşaltdığı bölgəni 36-cı Qafqaz diviziyası təhvil götürdü. 15-ci diviziya 191 zabit və 5541 əsgərlə 9 sentyabrda Bakı cəbhəsinə çatdı, bundan sonra şəhərə qarşı hücum qətilik qazandı. Bu məsələdə Qafqaz İslam Ordusu komandanlığından verilən 10 sentyabr tarixli əmrlə hücum hazırlıqlarına başlandı. Hücumdan əvvəl Şərq cəbhəsi komandanlığı və ona məxsus Şimal qrupu ləğv edilmiş, cəbhədəki bütün birləşmələrin hərəkəti bilavasitə Qafqaz İslam Ordusu komandanlığına həvalə edilmişdi. Bu vəziyyətdə V Qafqaz diviziyasına Mürsəl Paşa, 15-ci piyada diviziyasına polkovnik-leytenant Süleyman İzzət bəy, Cənub qrupu birləşmələrinə isə polkovnik Cəmil bəy, polkovnik-leytenant Halim Pertev bəy isə Cənub qrupu daxilində olan və Azərbaycan könüllü birləşmələrindən ibarət IV alaya rəhbərlik edəcəkdi.

Beləliklə, əməliyyat üçün bütün hazırlıqlar tamamlandı. Bakı cəbhəsində təxminən 8000 Osmanlı əsgəri və 7000-ə qədər Azərbaycanın hərbi qüvvələri toplanmışdı. Nizamlı hərbi strategiya və taktika əsasında hücuma keçildi. Cəbhə döyüşlərindən sonra 15 sentyabr tarixində tərəflər arasında piyada, pulemyot və top atəşi başlandı. Bakını müdafiə etməyə çalışan əsgərlərin böyük hissəsinin "Qırmızı kazarma" deyilən yerdə toplandığı məlum oldu. Hücuma keçən 13-cü, 9-cu və 56-cı alaylar şəhərə girməyə başladılar. Nəticədə müəyyən olunmuş strateji əməliyyat planı çərçivəsində istinad edilən döyüş taktikası ilə Azərbaycan Milli Ordusu Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik işğalından azad etdi. Avropa dövlətlərinin etirazlarına, hətta diplomatik skandal yaratmaq cəhdlərinə baxmayaraq, qardaş köməyini əsirgəməyən, ölkəmizi ən çətin tarixi məqamda yalnız qoymayan Osmanlı Türkiyəsi 1918-ci ilin avqust-sentyabr aylarında öz tarixi vəzifəsini şərəflə yerinə yetirdi. Bundan sonra da erməni-bolşevik birləşmələri asayişi pozmaq və təxribatlar törətmək üçün ciddi cəhdlər etməyə başladılar. Bütün bunlara baxmayaraq, düşmən qüvvələr neytrallaşdırıldı və asayiş bərpa edildi.

Beləliklə, Bakıdan gələn heyətlə V Qafqaz diviziya qərargahında Bakının qeyd-şərtsiz dərhal təslim edilməsi, silah-sursat, dövlət əmlakı və binaların, o cümlədən silah anbarları, yük maşınları, zirehli avtomobillər və təyyarələr daxil olmaqla bütün texnikanın təhvil verilməsi, Nargin adasında olan türk, alman və avstriyalı əsirlərin qaytarılması şərtlərinin yer aldığı müqavilə imzalandı. Bakı ərazisinin komandanlığına Cənub qrupu komandiri Cəmil Cavid bəy təyin edildi.

Bakı azad edildikdən sonra Qafqaz İslam Ordusunun Gəncədə yerləşən qərargahı buraya köçdü. 9 sentyabrda Güzdəyə gələrək əməliyyatı yaxından izləyən Şərq Orduları Qrupunun komandanı Xəlil Paşa və Bakı əməliyyatının rəhbəri - Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa 16 sentyabrda Bakı ətrafında birləşmələrin rəsmi keçidini qəbul etdikdən sonra şəhərə daxil oldular. Şəhər sakinləri xilaskar ordunu böyük sevinclə qarşıladılar.

Azərbaycan Milli Ordusunun Qafqaz İslam Ordusu ilə birlikdə tarixi zəfərindən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən Bakıya köçürüldü. Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verildi, həmin ilin dekabr ayında isə parlamentə demokratik prosedurlar əsasında seçkilər keçirildi. Beləliklə, 1918-ci il sentyabrın 15-də Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı kontekstində müstəsna əhəmiyyət daşıyan mühüm tarixi hadisə oldu. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunan rəsmi qəbulda nitq söyləyən Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır.

Sadalananlar deməyə əsas verir ki, Azərbaycan Milli Ordusu ilə Qafqaz İslam Ordusunun birlikdə Bakını işğalçı qüvvələrdən azad etməsi Azərbaycan tarixinin, Azərbaycan-Türkiyə qardaşlığının ən mühüm, şərəfli və şanlı səhifələrindən biridir. Bir məqama da xüsusi olaraq toxunmaq lazımdır ki, azərbaycanlılar da Türkiyənin ən çətin tarixi anlarında özünün qardaşlıq dəstəyini və həmrəyliyini göstərmişdir. Məsələn, azərbaycanlılar müstəqil olaraq Osmanlı ərazilərinə keçib, Çanaqqalada öz qardaşları ilə çiyin-çiyinə vuruşmuşdular. Bununla bağlı çox dəqiq arxiv materialları mövcuddur. 1920-ci ilin aprelində Azərbaycanın müstəqilliyinə son qoyulmasına baxmayaraq, azərbaycanlılar qardaş Türkiyənin istiqlal savaşında yaxından iştirak etdilər.

### DƏRİN TARİXİ KÖKLƏRƏ ƏSASLANAN TÜRKİYƏ-AZƏRBAYCAN DOSTLUĞU VƏ QARDAŞLIĞI SARSILMAZDIR!

Azərbaycan xalqı onun istiqlalı uğrunda şəhid olmuş türk əsgərlərinin xatirəsinə ehtiramını layiqincə ifadə edir. Bu gün türk xalqlarının mədəni-mənəvi inteqrasiyasının daha da dərinləşdirilməsini, türk tarixinin obyektiv araşdırılmasını başlıca vəzifə elan etmiş müvafiq strukturlar türkün şanlı zəfər salnaməsinə parlaq səhifə kimi daxil olmuş həmin hadisələrin - Azərbaycan Milli Ordusu ilə Qafqaz İslam Ordusunun Azərbaycanda 100 il öncə apardığı uğurlu döyüşlərin tam təfsilatının öyrənilməsinə və təbliğinə, bu qəhrəmanlıq örnəyinin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi üçün əyani vəsaitə çevrilməsinə xüsusi diqqət yetirməkdədirlər. Beləliklə, tariximizin ən şanlı səhifələrindən olan bu möhtəşəm zəfər Azərbaycan-Türkiyə qardaşlığının bariz nümunəsi və təntənəsi, qürur və iftixar mənbəyidir.

Ümumiyyətlə, Türkiyə-Azərbaycan münasibətləri uğurlu regional və beynəlxalq əməkdaşlıq nümunəsi olmaqla yanaşı, həm də dostluq və qardaşlıq örnəyi kimi xarakterizə edilir. Bununla yanaşı, Azərbaycan-Türkiyə münasibətləri davamlı inkişaf dinamikasına malikdir. Bu iki ölkəni bir-birinə bağlayan strateji əsaslar xalqlararası dərin inteqrasiya, ortaq milli keçmişə və dəyərlərə malik olmaq, eyni zamanda, milli maraqların uzlaşdırılmasıdır. Bütövlükdə, hər bir sahədə inkişaf edən Azərbaycan-Türkiyə dostluğu və strateji tərəfdaşlığı dünya üzrə unikal bir nümunəyə çevrilib.

Qürurverici haldır ki, bu gün Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birini dəstəkləyir, dostluq, qardaşlıq nümunəsi ilə dünyaya örnək olurlar. Türkiyə və Azərbaycan nəinki regionda, eləcə də beynəlxalq miqyasda bir-birini ən sıx və yaxından dəstəkləyən ölkələr kimi çıxış edirlər. Başqa sözlə, dərin tarixi köklər, sarsılmaz dostluq Türkiyə-Azərbaycan qardaşlığının təməlini təşkil edir. Reallıq budur ki, dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ölkələr tapmaq mümkün deyil.

**Nurlan QƏLƏNDƏRLİ**

# Bakının işğaldan azad olunmasının 100 illiyinə həsr edilmiş sərgi – "Millət sizə minnətdardır"









Sentyabrın 14-də Milli Azərbaycan Tarixi Muzeyində Bakının erməni-daşnak qüvvələrinin işğalından azad olunmasının 100 illiyinə həsr edilmiş "Millət sizə minnətdardır" adlı sərgi açılıb.

AZƏRTAC xəbər verir ki, sərgi Milli Azərbaycan Tarixi Muzeyi və Türkiyənin ölkəmizdəki səfirliyinin birgə təşkilatçılığı ilə gerçəkləşib.

Tədbir Türkiyə və Azərbaycanın dövlət himnlərinin səslənməsi ilə başlayıb.

Muzeyin direktoru, akademik Nailə Vəlixanlı çıxış edərək sərginin əhəmiyyətindən söz açıb. O deyib ki, 100 il bundan əvvəl Azərbaycan tarixində ən önəmli hadisə baş verib. Bakının düşmən işğalından azad olunmasının tarixi əhəmiyyəti haqqında danışan N.Vəlixanlı deyib: **"Əlamətdar haldır ki, 100 il əvvəl bu zalda görkəmli xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev Nuru paşa başda olmaqla Qafqaz İslam Ordusunun komandanlığının şərəfinə ziyafət verib. O vaxt türk qardaşlarımızın köməyi ilə istiqlal yürüşü zəfər yürüşünə çevrildi. 1918-ci il sentyabrın 15-də Nuru paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusu və Əliağa Şıxlinskinin rəhbərlik etdiyi Azərbaycan hərbi hissələri Bakını düşmən işğalından azad etdi. Bütün bu hadisələr türkün türkə sadiqliyinin, düşmənə isə nifrətinin göstəricisi idi. Ona görə də əcdadlarımızın bizə qoyub getdiyi vətənpərvərlik hissinə sahib çıxmaq və onu qorumağa borcluyuq. Bugünkü sərgi də onların ruhuna hörmətimizin bariz nümunəsidir".**





Akademik Nərgiz Axundova deyib ki, Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük hadisədir. Osmanlı qoşunları Bakının azad olunması üçün həyata keçirdikləri hərbi əməliyyatlarda mindən çox şəhid veriblər. Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə dair imzaladığı Sərəncama diqqət çəkən natiq deyib ki, bu il həm də ölkəmizdə Cümhuriyyətlə bağlı silsilə tədbirlər keçirilir. Bugünkü tədbir də bu qəbildən olan tədbirlər sırasında yer alır. Yüz il əvvəl baş verən hadisə - Bakının işğaldan azad olunması Azərbaycan-Türkiyə qardaşlığının birliyi nəticəsində mümkün oldu. Bu gün də o birlik, qardaşlıq davam etdirilir.

Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral söyləyib ki, bu böyük bayram - Bakının işğaldan azad olunması hər iki qardaş ölkədə qeyd edilir. **"Biz, Türkiyə və Azərbaycan tariximiz boyunca bir olduq, bundan sonra da bir olacağıq. Çünki biz iki dövlət, bir millətik. Türkiyə azərbaycanlılar üçün necə vətəndirsə, Azərbaycan da bizim üçün elə vətəndir. Qafqaz İslam Ordusu da 100 il əvvəl Azərbaycana bu hisslərlə gəlmişdi. Bu tarixi hadisə münasibətilə belə bir sərginin təşkili gələcək nəsillərə bir nümunədir"**, - deyə səfir qeyd edib.

Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi-Prezidentin köməkçisi, professor Dilarə Seyidzadə tədbirdə çıxış edərək 100 illiyi qeyd olunan bu mühüm hadisə ilə bağlı fikirlərini bölüşüb. O, 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusunun Bakını erməni-daşnak qüvvələrinin işğalından azad etməsinin Azərbaycan tarixində çox böyük bir hadisə olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin silsilə tədbirlərlə qeyd edildiyini deyən Dilarə Seyidzadə vurğulayıb ki, bu, dövlətimizin başçısının tariximizin ən şanlı səhifəsinə diqqətinin göstəricisidir.

Dilarə Seyidzadə bildirib ki, müsəlman Şərqində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin ömrünün uzun olmasına düşmən imkan vermədi. Cümhuriyyət üçün ağır günlərdə türk qardaşlarımız bizə köməyə gəldilər və biz düşmənə birliyimizi göstərə bildik. Ulu öndər Heydər Əliyev Türkiyə-Azərbaycan qardaşlığının daha da möhkəmlənməsi üçün əlindən gələni edib. Bu gün Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birini dəstəkləyir, həmişə bir-birinin yanındadır. Belə tarixi əhəmiyyətli bir tədbirin təşkil olunması da dostluğumuzun və qardaşlığımızın bariz nümunəsidir.

Sonra qonaqlar sərgi ilə tanış olublar.

Sərgidə muzeyin silahlar və bayraqlar fondu, xatirə əşyaları və hədiyyələr fondu və köməkçi tarixi fənn materialları fondundan 120-dən artıq unikal tarixi eksponat tamaşaçılara təqdim edilir. Eksponatlar arasında türk və Azərbaycan döyüşçülərinin silah və ləvazimatları, Bakı Soveti, Sentrokaspi Diktaturası və ingilis qoşunlarının silahları, döyüş yerlərində tapılmış artefaktlar, azərbaycanlı döyüşçülərin təltif olunduğu osmanlı ordenləri, həmçinin Qafqaz İslam Ordusuna həsr olunmuş kitab və kataloqlar nümayiş olunur.

Sərgidə rəssam və heykəltəraş Əjdər Qafarovun hazırladığı "Nuru paşa" və "Həbib bəy Səlimov" büstləri, türk və Azərbaycan sərkərdələrinin portretləri ziyarətçilərin ixtiyarına verilib.

Hərbi-siyasi hadisələrin xronoloji ardıcıllıqla təqdim olunması məqsədilə sərgidə 14 informasiya-məlumat paneli üzərində mətnlər, 100-dək fotoşəkil, dövrün şairlərinin şeirlərindən parçalar, döyüşlərin xəritəsi, döyüş səhnəsi təsvirləri hazırlanıb. Dövrün şairlərinin əsərlərində Azərbaycanın istiqlalı uğrunda həlak olmuş türk və Azərbaycan döyüşçülərinin qanları yazda çölləri bəzəyən lalələrə bənzədilir. Sərginin ümumi tərtibatında bu element xüsusi olaraq istifadə edilib.

Dekabrın 14-dək davam edəcək sərginin kuratoru muzeyin elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri Səbuhi Əhmədovdur.

# Bakıda "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib

Sentyabrın 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva bildirib ki, Məhərrəm ayı ilə əlaqədar Dövlət Komitəsi bu mövzuda silsilə tədbirlər həyata keçirir. O qeyd edib ki, Lənkəran, Astara rayonlarında, eləcə də Bakı şəhərinin Sabunçu, Səbail, Binəqədi, Yasamal, Suraxanı rayonlarında keçirilən seminar-müşavirələrdə rayon icra hakimiyyətinin başçıları, Milli Məclisin deputatları, QHT nümayəndələri, Qafqaz Müsəlmanları İdarəsinin təmsilçiləri, dini icma rəhbərləri, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Onun sözlərinə görə, tədbirlərin təşkilində əsas məqsəd milli-mənəvi irsimizin düzgün təbliği, dini mərasimlərin milli-mənəvi dəyərlərimizə və müasir dövrün tələblərinə uyğun keçirilməsi istiqamətində maarifləndirmə işinin aparılmasıdır. Bildirilib ki, bu gün keçirilən seminar-müşavirə iştirakçılarının ancaq qadınlar olması cəmiyyətimizdə, ölkəmizin ictimai-siyasi, sosial həyatında qadınların rolunu və mövqeyini göstərir. Y.Əliyeva bildirib ki, Azərbaycan qadını hər zaman cəmiyyətin avanqard qüvvəsi hesab olunub və taleyüklü məsələlərin həllinə, cəmiyyətin maarifləndirilməsi işinə öz dəyərli töhfəsini verib.



DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Elnarə Kərimova isə qeyd edib ki, Azərbaycan xalqının milli adət-ənənələri, əxlaqi, mənəvi dəyərləri onun qədim tarixə malik zəngin mədəniyyətinin göstəricisidir. Hər bir xalqın adət-ənənələri onun mənsub olduğu dinlə sıx bağlıdır. Şöbə müdiri vurğulayıb ki, İslam dini Azərbaycan xalqının milli-mənəvi dəyərlərində, həyat tərzində, adət-ənənələrində dərin izlər buraxıb. Zaman keçdikcə, cəmiyyət dəyişdikcə sadəcə din və onun qayda-qanunları, hökmləri dəyişilməz qalır. **"Adət-ənənələr, mərasimlər isə zamanla dəyişir, müasir dövrün tələbinə uyğunlaşır. Dini mərasimlər dinimizi, tariximizi, mədəniyyətimizi, ənənələrimizi, həyat tərzimizi əks etdirməlidir. Düzgün maarifləndirmə, fərdi şəkildə xurafatla mübarizə, elmimizin və mənəviyyatımızın paralel inkişafı dinimizi xurafatdan, mövhumatdan qoruya və gələcək nəsillərə ötürə bilər"**, - deyə E.Kərimova diqqətə çatdırıb.

Daha sonra çıxış edən Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı isə bildirib ki, bu gün Azərbaycanda bu sahələr üzrə islahatlar gedir. Xurafat və cəhalətə qarşı mübarizəni isə yalnız dövlətin deyil, cəmiyyətin aparmalı olduğunu deyən M.İbrahimqızı qeyd edib ki, Azərbaycan qadınları gələcək üçün sağlam nəsil yetişdirməlidir. Deputat vurğulayıb ki, bu gün bəzi dini mərasimlərdə savadsız mollaların söhbətləri olur. Bu da yeniyetmələrin dünya görüşlərinə və təfəkkürlərinə təsir edir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova bildirib ki, İslam cəmiyyətə faydalı din kimi təbliğ olunmalıdır. Bu işin reallaşmasında vəzifəsindən və statusundan asılı olmayaraq qadınlar daha çox fəallıq nümayiş etdirməlidir. Azərbaycan xalqının yüksək savada və intellektə sahib olduğunu bildirən S.Qəhrəmanova deyib: **"Yeni nəslə izah olunmalıdır ki, İslam dini qadınlara hüquq verir. İslam tarixinə diqqət yetirdikdə görürük ki, ərəblərin cahillik dövründə körpə qız uşaqlarının diri-diri torpağa basdırılması məhz İslam dininin yayılmasından sonra dayandırılıb. Bu gün ölkəmizdə İslamın qaydalarından kənar, yanlış təbliğat aparan savadsız qrup mövcuddur. Birlikdə bu neqativ halın qarşısını almaq lazımdır"**.

Qafqaz Müsəlmanları İdarəsinin Mətbuat katibliyinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru Rəhimə Dadaşova bildirib ki, İslam seçilən bir dindir. Dinimizdə gender probleminin olmadığını deyən R.Dadaşova qeyd edib ki, İslam insanla olduğu kimi çatdırılmalıdır. Onun sözlərinə görə, QMİ-nin təlimatlarına uyğun olaraq, təyinat alan qadın mollalar yüksək dini biliklərə sahib olmalıdırlar. Məscidlərdə QMİ-nin təyinatı ilə işləyən din xadimlərinin daim attestasiyası keçirilir. Onların təhsili olması, təkmilləşməsi də diqqətdə olan məsələlərdəndir.

R.Dadaşova əlavə edib ki, QMİ fətva verməklə insanlara Aşura məclisinin necə keçirilməsini tövsiyə şəklində bildirir. O vurğulayıb ki, bu il Aşura günündə qanvermə aksiyalarının keçiriləcəyi ünvanların sayı daha da artıb. Bu günədək qanvermə aksiyalarına ancaq müsbət reaksiya verilib.

**"Erkən nikahların olmasına görə yalnız din xadimlərini günahlandırmaq olmaz. Çox zaman erkən nikahı məhz mollalar bağlayırlar. Bu məsələyə kompleks yanaşmaq lazımdır. Ailə, məktəb də erkən nikah məsələsində rol oynamalıdır. Ailə və məktəb öz məsuliyyətini mollanın üzərinə ata bilməz"**, - deyə Rəhimə Dadaşova diqqətə çatdırıb.

## Azərbaycan-Portuqaliya parlamentlərarası əlaqələri müzakirə olunub



Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, Azərbaycan - Portuqaliya parlamentlərarası dostluq qrupunun rəhbəri Aqiyə Naxçıvanlı Milli Məclisdə ölkəmizdə səfərdə olan NATO PA-nın vitse-prezidenti, Portuqaliya Milli Assambleyasının deputatı, Portuqaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Vitalino Xose Ferreira Kanaşla görüşüb.

Görüşdə ikitərəfli parlamentlərarası əlaqələrin inkişafından danışılıb, beynəlxalq təşkilatlarda hər iki ölkənin parlamentarilərinin əməkdaşlığının vacibliyi vurğulanıb.

Bakı şəhərinin "Ekspo 2025" Ümumdünya Sərgisinə ev sahibliyi üçün namizədliyinin irəli sürüldüyünü diqqətə çatdıran Aqiyə Naxçıvanlı Portuqaliyanın 2018-ci ilin noyabrında Parisdə keçiriləcək Beynəlxalq Sərgilər Bürosunun 164-cü sessiyasında Bakı şəhərinin namizədliyini dəstəkləyəcəyinə ümidvar olduğunu söyləyib.

Komitə sədri Aqiyə Naxçıvanlı qonağa Dağlıq Qarabağ münaqişəsi, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması barədə məlumat verib, onu Azərbaycanın haqq mövqeyini beynəlxalq tribunalarda dəstəkləməyə dəvət edib.

Vitalino Kanaş öz növbəsində səmimi qəbuldan məmnunluğunu və nüfuzundan istifadə edərək, Azərbaycanın maraqlarının təmin olunmasında ölkəsinin fəallıq göstərəcəyini bildirib.

Görüşdə Azərbaycan-Portuqaliya parlamentlərarası dostluq qrupunun üzvü Jalə Əliyeva da iştirak edib.

# YAP İcra katibinin müavini Siyavuş Novruzov Monteneqro Sosialistlərinin Demokratik Partiyasının nümayəndə heyəti ilə görüşüb





Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov ölkəmizdə səfərdə olan Monteneqro Sosialistlərinin Demokratik Partiyasının nümayəndə heyəti ilə görüşüb.



Qonaqları salamlayan Siyavuş Novruzov bu səfərin partiyalar arasında əlaqələrin daha da inkişafına töhfə verəcəyini bildirib. Siyavuş Novruzov deyib ki, YAP-la Monteneqro Sosialistlərinin Demokratik Partiyasının geniş əlaqələri mövcüddur. Partiyalar arasında əməkdaşlıq haqqında sənədin də imzalandığını, qarşılıqlı səfərlərin baş tutduğunu xatırladan S.Novruzov bütün bunların əlaqələrin inkişafına xidmət etdiyini diqqətə çatdırıb. Siyavuş Novruzov tərəflərin həmçinin beynəlxalq təşkilatlar, o cümlədən NATO Parlament Assambleyası çərçivəsində də fəal əməkdaşlıq etdiyini söyləyib.

Azərbaycanla Monteneqro arasında münasibətlərin yüksək səviyyədə olduğunu deyən YAP İcra katibinin müavini hər iki ölkənin prezidentlərinin qarşılıqlı səfərlərinin, eləcə də dövlətlər arasında imzalanmış sənədlərin münasibətlərin genişlənməsində mühüm rol oynadığını vurğulayıb. Siyavuş Novruzov bildirib ki, iki ölkə arasında siyasi, iqtisadi, mədəni, o cümlədən turizm sahəsində əlaqələr yüksələn xətlə inkişaf edir. Onun sözlərinə görə, dövlətlər və partiyalar arasında münasibətlər bütövlükdə xalqlarımız arasında əlaqlərin inkişafına xidmət edir.

Monteneqro Sosialistlərinin Demokratik Partiyasının Siyasi məsələlər üzrə direktoru Tarzan Miloşeviç Azərbaycana səfər etmələrindən məmnunluğunu bildirib. Azərbaycanla Monteneqro arasında münasibətlərin çox yüksək səviyyədə olduğunu deyən Tarzan Miloşeviç bu münasibətlərin inkişafında dövlət başçılarının rolunu xüsusi vurğulayıb.

Münasibətlərin bir çox sahələri əhatə etdiyini deyən qonaq Azərbaycanın Monteneqroya böyük sərmayə yatırdığını xüsusi vurğulayıb. Azərbaycan dövləti tərəfindən Monteneqroda ən müasir standartlara cavab verən uşaq baxçasının tikilib istifadəyə verildiyini qeyd edən Tarzan Miloşeviç bildirib ki, bu hadisə ölkəsində minnətdarlıqla qarşılanır. O, bütün sahələrdə olduğu kimi partiyalar arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

Görüşdə YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva da iştirak edib.

# Milli Məclisdə "Siyasi plüralizm və parlament təcrübəsi" mövzusunda "dəyirmi masa" keçirilib



Sentyabrın 14-də Milli Məclisdə Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşkilatçılığı və parlamentdə təmsil olunan siyasi partiya nümayəndələrinin, beynəlxalq gənclər təşkilatları üzvlərinin iştirakı ilə "Siyasi plüralizm və parlament təcrübəsi" mövzusunda "dəyirmi masa" keçirilib.

AZƏRTAC-ın məlumatına görə, tədbirdə Milli Məclis sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova bildirib ki, parlamentin tərkibi Azərbaycanın siyası palitrasını özündə tam şəkildə əks etdirir. Parlamentdə 11 siyasi partiya təmsil olunur. Sədr müavini iştirakçılara parlamentin qanun yaradıcılığı prosesi, ölkədə insan hüquqlarının təminatı, digər ölkələrlə və parlamentlərlə qarşılıqlı əməkdaşlığın perspektivləri barədə məlumat verib. Bahar Muradova Azərbaycanın beynəlxalq təşkilatlarla və dünya dövlətləri ilə əlaqələrindən, mövcud münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində görülən işlərdən bəhs edib.



Sədr müavini qeyd edib ki, bu tədbir ölkəmiz üçün əlamətdar bir vaxta, müsəlman Şərqində ilk demokratik cümhuriyyət qurmuş Azərbaycan parlamentinin 100 illik yubileyi ərəfəsinə təsadüf edir. Sentyabrın 21-də Milli Məclisin binasında 50-dək ölkənin nümayəndəsi, parlament rəhbərləri, beynəlxalq təşkilatların rəsmilərinin iştirakı ilə təntənəli yubiley tədbirləri keçiriləcək.

Bahar Muradova bildirib ki, bu tədbirin əsas məqsədi Azərbaycanda parlamentarizmin, dövlətçiliyin yaranması və inkişafı məsələləri ətrafında iştirakçıları məlumatlandırmaqdır. Həmçinin Azərbaycan parlamentinin keçdiyi yol, bu müddət ərzində vətəndaş cəmiyyətinin formalaşması, siyasi plüralizmin inkişafı və parlamentarizm ənənələrinin möhkəmlənməsi istiqamətində atılan addımlar, nailiyyətlərimiz, uğurlarımız barədə fikir mübadiləsinin aparılmasıdır.

Tədbirdə çıxış edən Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İcra katibinin müavini Siyavuş Novruzov tədbir iştirakçılarına Azərbaycan Xalq Cümhuriyyətinin, parlamentin yaranması tarixi, seçki sistemi haqqında geniş məlumat verib. Qeyd olunub ki, bu gün Yeni Azərbaycan Partiyası parlamentdə 68 deputatla təmsil olunur. Parlamentin strukturu barədə məlumat verən Siyavuş Novruzov komitələrin iş prinsipindən də danışıb. Diqqətə çatdırıb ki, Azərbaycan parlamenti bir çox beynəlxalq təşkilatların üzvüdür. Bu cür qarşılıqlı əlaqələr Azərbaycanda qanunvericilik təşəbbüsünün təkmilləşməsinə xidmət göstərir.

**"Hər birinizin məlumatlı olduğu və bizim ən ağrılı problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün parlamentin mövqeyi yekdildir. Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. İşğal altında olan torpaqlarımızın geri qaytarılması istiqamətində parlament də öz fəaliyyətini göstərir. Əsas məqsədimiz odur ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və bir milyondan çox qaçqın və məcburi köçkün öz yurduna qaytarılmalıdır",** - deyə Siyavuş Novruzov qeyd edib.

Sonra toplantıda Avropa Demokratik Gənclər İcmasının (DEMYC) sədri Havier Hurtado təmsil etdiyi qurum barədə geniş məlumat verib. Bildirilib ki, DEMYC əməkdaşlıq platformasıdır və Avropanın ən güclü siyasi gənclər təşkilatlarından biridir. 1964-cü ildə təsis olunub. Havier Hortado, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində təşkilatın dəstəyini təklif edib, münaqişə tərəfləri arasında dialoqun yaranmasına dəstək ola biləcəklərini söyləyib.

Tədbirdə iştirak edən Milli Məclisin deputatları, Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Sosial-Demokrat Partiyasının sədri Araz Əlizadə, Vəhdət partiyasının sədri Tahir Kərimli, Sosial Rifah Partiyasının sədri Xanhüseyn Kazımlı, BAXCP-nin sədri Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev ölkənin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən söhbət açıblar. Qeyd olunub ki, 25 ildən artıqdır davam edən münaqişə bütün regionun təhlükəsizliyi üçün ciddi təhdiddir.

Tədbirdə Şanxay Əməkdaşlıq Təşkilatının Gənclər Şurasının sədri Talaybek Dayirbekov, DEMYC-in baş katibi Marqarita Saltinin, Mərakeş parlamentinin üzvü Abdulmecid Fassi, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov çıxış edərək öz fikirlərini bildirib, tədbirin əhəmiyyətindən danışıblar.

# YAP Suraxanı rayon təşkilatının yaradılmasının 25-ci ildönümü münasibətilə tədbir keçirilib



Sentyabrın 14-də Yeni Azərbaycan Partiyasının (YAP) Suraxanı rayon təşkilatının yaradılmasının 25-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər.

Daha sonra tədbir dövlət himninin səsləndirilməsi ilə öz işinə başlayıb. Əvvəlcə məktəblilərin ifasında bədii kompozisiya təqdim olunub, sonra YAP-ın fəaliyyətinə həsr olunmuş video-çarx nümayiş etdirilib.

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov bildirib ki, YAP ölkəmizin siyasi həyatında uğurla fəaliyyət göstərir və bu gün cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlər qazanır. Onun sözlərinə görə, Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, YAP-ın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz çox mühüm uğurlara nail olub.




V.Seyidov deyib ki, YAP Suraxanı rayon təşkilatı 25 ildir ki, respublikanın ictimai-siyasi həyatında fəal iştirak edir, qazandığı uğurlarla YAP-a və ölkəmizə xidmət göstərir. Sevindirici haldır ki, YAP Suraxanı rayon təşkilatının üzvləri ölkəmizdə keçirilən bütün seçkilərdə və referendumlarda olduqca fəal iştirak ediblər, rayon təşkilatı yüksək peşəkarlıq nümayiş etdirib, rayon təşkilatının üzvləri dövlət rəhbərinə və partiyamıza sədaqətləri ilə seçiliblər. V.Seyidov deyib ki, rayon təşkilatı fəaliyyət göstərdiyi 25 il ərzində rayon ərazisində 110 ərazi ilk partiya təşkilatında 8469 nəfər üzvü ətrafında sıx birləşdirib. Təşkilat üzvlərindən 4365 nəfəri qadın, 3528 nəfəri isə gənclərdir.



Tədbirdə YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov çıxış edərək Yeni Azərbaycan Partiyasının fəaliyyət göstərdiyi dövr ərzində böyük inkişaf yolu keçdiyini vurğulayıb. Onun sözlərinə görə, YAP ölkəmizin ən böyük siyasi qüvvəsidir. E.İbrahimov qeyd edib ki, partiya müstəqillik tariximizlə yanaşı addımlayır və ölkəmizin qazandığı uğurlarda özünün böyük töhfələrini verib. YAP İdarə Heyətinin üzvü müstəqillik illərində Azərbaycanın bütün sahələrinin inkişaf etdiyini, beynəlxalq müstəvidə böyük nüfuz qazandığını vurğulayıb. O, 25 illiyini qeyd edən YAP Suraxanı rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Suraxanı rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov çıxışında partiyanın yaranma tarixindən danışıb və xalq qarşısında xidmətlərindən ətraflı bəhs edib.

Tədbirdə rayon təşkilatının fəallarına fəxri fərmanlar, YAP sıralarına yeni qoşulan şəxslərə isə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir bədii hissə ilə davam edib.

# Ənvər paşanın nəvəsi Arzu Ənvər Əroğan: 1918-ci ildə Bakıda erməni daşnakları ilə mübarizə türk əsgəri üçün vicdan borcuna çevrilmişdi

Azərbaycan mənim üçün fərqli bir ölkədir. Burada özümü vətənimdəki kimi hiss edirəm. Mənim qəlbimin bir hissəsi daim bu ölkədədir. Babalarım Ənvər paşanın və Nuru paşanın ruhu Azərbaycandadır.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Ənvər paşanın nəvəsi Arzu Ənvər Əroğan bildirib. Osmanlı dövlətinin 1918-ci ildə Azərbaycana göstərdiyi kömək barədə danışan Arzu xanım qeyd edib ki, erməni-daşnak, bolşevik qüvvələri Azərbaycanla Anadolu arasında o dövrdə inkişaf etməkdə olan münasibətlərə zərbə vurmaq üçün işğalçılıq siyasətinə əl atdılar. Bu zaman Azərbaycandan Ənvər paşaya müraciətlər başladı və bütün maneələrə baxmayaraq, bu çağırışlar qısa müddətdə Qafqaz İslam Ordusunun təşkili və fəaliyyətə başlaması ilə cavablandırıldı: **"Babam Ənvər paşanın bu qərarı verməsinə yalnız bir səbəb var idi - Azərbaycandakı qardaşlarını erməni daşnaklarından xilas etmək".**



Arzu Ənvər Əroğan bildirib ki, Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun Azərbaycana göndərilməsini əks etdirən maraqlı tarixi faktlar da mövcuddur. Xəlil paşa o günləri belə xatırlayırdı: **"Azərbaycanın təlim görmüş ordusu yox idi. Bakı ingilislər və onlara kömək edən daşnaklar və bolşeviklər tərəfindən işğal ediləndə mənə Şərq orduları komandanlığı vəzifəsi verildi. Ənvər paşa Bakı istiqamətində hərəkətə keçəcək İslam Ordusu yaratmaq qərarına gəldi. Qurulacaq bu ordunun komandanlığını da qardaşım oğlu Nuruya verdi. Nuru paşa Ənvər paşanın qardaşıdır. Biz birlikdə döyüşmüşdük. Balkan cəbhəsində, I Dünya müharibəsi zamanı ona önəmli vəzifələr verilmişdi..."**

Ənvər paşanın nəvəsi vurğulayıb ki, 1918-ci ildə Bakıda erməni daşnakları ilə mübarizə türk əsgəri üçün vicdan borcuna çevrilmişdi. O dövrdə və ondan əvvəlki hadisələr yazışmalarda qeyd olunurdu və 1918-ci ilin avqustunda Bakı əhalisinin Qafqaz İslam Ordusuna göndərdiyi müraciətin son cümlələri belə idi: **"...Əgər siz bu böyük İslam şəhərini tuta bilməsəniz, Allah deyənlərin varlığını aradan qaldırmaq istəyən və qaldıran düşmənlər öndən və arxadan sizi əhatə edəcək, qıcanan dişlər yeni zülmlər üçün itilənmiş olacaq. Lakin sən, ey türk əsgəri, ingilislərin gücünü öz hesabına Çanaqqalada qırdın, onların güllələrinə, ən böyük hərbi gəmilərinə aylarla sinə gərdin. Türk adını ucaldan Çanaqqala, Kut-ül Amarə, Galisiya, Rumıniyadan sonra Qafqaza gələcəksən və Bakı şəhəri də igidlik tacının bir almaz daşı olacaq..."**

Arzu Ənvər diqqətə çatdırıb ki, 1918-ci ildə daşnak-bolşevik qüvvələrinə qarşı aparılan mübarizənin bu gün müsbət nəticələri göz önündədir. Minlərlə şəhidin qanının töküldüyü torpaqda müstəqil Azərbaycan dövləti var. Eyni zamanda, bu gün ortaq inkişafa imkan yaradan əsl münasibətlərin möhkəm təməlləri qurulub. Ulu öndər Heydər Əliyevə və Onun davamçısı Prezident İlham Əliyevə, eləcə də Türkiyə rəhbərlərinə münasibətlərin inkişafına verdikləri böyük töhfələrə görə daim böyük minnətdarlıq düşür.

# Bakıda "Mülkiyyət hüququ" mövzusunda konfrans keçirilib



Sentyabrın 14-də Bakıda Avropa İttifaqının və Avropa Şurasının "Avropa İnsan Hüquqları Konvensiyasının və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" birgə proqramı çərçivəsində "Mülkiyyət hüququ" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Avropa Şurasının Bakı ofisinin rəhbəri Zoltan Hernyes bu layihənin 2015-ci ilin yanvarında başladığını və 2018-ciilədək uzadıldığını deyib. Bildirib ki, bugünkü tədbir çox mühüm bir məsələyə - mülkiyyət hüququnun müdafiəsinə həsr olunub. O, tədbirin keçirilməsinə göstərdikləri dəstəyə görə Azərbaycanın müvafiq qurumlarına minnətdarlıq edib.

Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri Ramiz Rzayev konfransda çıxış edərək deyib ki, tədbir çox vacib və aktual bir məsələyə-mülkiyyət hüququ və onun müdafiəsinə həsr olunub. Mülkiyyət meydana çıxdığı zamandan insanlar onun qorunmasına önəm verir, onu kənar müdaxilədən müdafiə etməyə çalışır. Ona görə də konfrans ərzində mülkiyyət hüququ ilə bağlı Avropa Şurası, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin standartlarını müzakirə etmək, bu sahədə fikir mübadiləsi aparmaq mülkiyyət hüququnun müdafiəsi ilə bağlı ədalət mühakiməsinin həyata keçirilməsinə, Azərbaycanda məhkəmə sisteminin müasirləşdirilməsi və inkişafına, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, milli təcrübənin mütərəqqi ideyalarla zənginləşməsinə öz töhfəsini verəcək.

Ali Məhkəmənin sədri diqqətə çatdırıb ki, müasir Azərbaycan Respublikasının milli qanunvericiliyi insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ruhunda yeniləşməklə yanaşı, həmin hüquqların təmini üçün yeni mexanizmlər yaradıldı, mövcud mexanizmlər beynəlxalq standartlara uyğunlaşdırıldı.

Azərbaycan ardıcıl olaraq insan hüquqları sahəsində beynəlxalq müqavilələrə qoşularaq onların müddəalarının milli səviyyədə implementasiyasını təmin edib. Avropa Şurasına daxil olmaqla respublikamız insan hüquqlarına hörmətə sadiqliyini bir daha nümayiş etdirdi. Hazırda İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Avropa ölkələrinin hüquq sisteminin insan hüquqları sahəsinin inteqrasiyasını təmin edən ədalət mühakiməsi orqanıdır. Avropa Məhkəməsinin qərarları milli qanunverici, icra və məhkəmə orqanları üçün hüququn xüsusi mənbəyinə çevrilib, məhkəmə Avropa hüquq məkanının formalaşması və inkişafına mühüm təsir göstərir.

Ramiz Rzayev bildirib ki, Azərbaycanda məhkəmə-hüquq sistemində ardıcıl olaraq həyata keçirilən islahatlar insan hüquqlarının təmini, ədalət mühakiməsinin müasir standartlara uyğunlaşdırılması ilə bağlıdır. Məhkəmə-hüquq islahatlarının bir istiqamətini də ədalət mühakiməsini həyata keçirən hakimlərin beynəlxalq hüquq normalarını, insan hüquqları sahəsində beynəlxalq standartları, onların tətbiqi təcrübəsini mənimsəmələri təşkil edir.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov qeyd edib ki, Avropa Məhkəməsinin presedent qərarlarının ölkəmizin məhkəmə-hüquq sistemində təşviqi hər zaman həm dövlətin, həm də hüquq ictimaiyyətinin diqqət mərkəzində olub. Hətta bu qərarların müxtəlif sahələrdə çalışan hüquqşünaslar tərəfindən öyrənilməsini təşviq edən, dövlət səviyyəsində qəbul olunmuş sənədlər də mövcuddur. Bu mənada, sevindirici hal ondan ibarətdir ki, vəkillərimiz də Avropa Məhkəməsinin qeyd olunan presedent praktikasının formalaşmasında öz yerini tutur. Dolayı yolla Vəkillər Kollegiyasının üzvləri iştirak etdikləri işlər vasitəsilə ölkəmizdə məhkəmə-hüquq praktikasının formalaşmasına öz təsirini göstərir.

Diqqətə çatdırılıb ki, bu il ərzində ölkəmizdə vəkillərin sayı 50 faiz artaraq 1500 nəfərə çatıb. Bu il ilk dəfə olaraq vəkilliyə qəbul üzrə icbari təlim mərhələsində Avropa Məhkəməsinin, o cümlədən Konvensiyaya dair 3 ayrıca mövzu 20 günlük icbari tədris proqramına əlavə olunub. Həmin dərslər isə Vəkillər Kollegiyasının konvensiya üzrə sertifikatlı vəkilləri tərəfindən keçirilib. İcbari təlimlərlə bərabər, Avropa Şurası Vəkillər Kollegiyası, habelə Ədliyyə Akademiyası ilə birgə Konvensiyanın müxtəlif maddələri üzrə davamlı tədris tədbirləri də həyata keçirilir və vəkillərimiz həmin tədbirlərdə xüsusi entuziazmla iştirak edirlər.

Layihənin geniş regional əməkdaşlığı nəzərdə tutduğunu deyən Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin əməkdaşlıq şöbəsinin müdir əvəzi Aleksandra Nerisanu isə tədbirin əhəmiyyətindən danışaraq diqqətə çatdırıb ki, mülkiyyət öz sahibi tərəfindən istifadə edilməlidir. Son zamanlar Azərbaycanda iqtisadi inkişaf nəticəsində tikinti sürətlənib. Buna görə mülkiyyətin müdafiəsi üçün əlavə tədbirlər görülməlidir. Ümid edirik ki, bu istiqamətdə görülən işlər mülkiyyətin qorunmasına əlavə töhfə verəcək.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi Lətif Hüseynov konfransda "Mülkiyyət hüququnun əhatə dairəsi" mövzusunda məruzə ilə çıxış edib.

Konfransda "Avropa İnsan Hüquqları Konvensiyası hüququ" kitabının təqdimatı da olub.

Tədbirdə "Hüququn məzmunu: üç norma", "Mülkiyyət işlərində mütənasiblik", "Mülkiyyət hüquqları ilə bağlı milli təcrübənin əsas məsələləri", "Avropa İnsan Hüquqları Konvensiyasının presedent hüququ və milli təcrübə" mövzularında məruzələr dinlənilib, müzakirələr aparılıb.

# Bakıda Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına hazırlıqla bağlı Təşkilat Komitəsinin ilk iclası keçirilib



Sentyabrın 14-də UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Azərbaycan Prezidentinin müvafiq Sərəncamı əsasında yaradılmış Təşkilat Komitəsinin ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan nümayəndə heyətinin Bəhreyn Krallığının paytaxtı Manama şəhərində Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında iştirakını əks etdirən və sessiyada nümayiş olunan Azərbaycanın tanıtım videoçarxı nümayiş olunub.

Tədbirdə Təşkilat Komitəsinin sədri, mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək qarşıda duran vəzifələr haqqında təşkilat komitəsinin üzvlərinə məlumat verib. Bildirib ki, Bakıda keçiriləcək İrs Komitəsinin sessiyasında dünyanın hər hansı bir ölkəsinin mədəni nümunəsi haqqında qərar çıxarılarsa, bu ölkənin bəşəriyyətin tarixinə öz adını yazdırması deməkdir. Bu baxımdan komitənin iclası mühüm hadisədir. Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, Birinci vitse-prezident Mehriban Əliyevanın UNESCO-da apardığı siyasətin məntiqi nəticəsidir ki, bu məsuliyyət Azərbaycana həvalə edilib. **"Biz təşkilat komitəsi olaraq bu tədbirə bütün qüvvəmizlə hazırlaşmalı və Azərbaycana 10 gün müddətində 3 mindən artıq qonağın qatılacağı tədbiri yüksək səviyyədə təşkil etməliyik",** - deyə nazir bildirib.

Nazir əlavə edib ki, ölkəmizin son illər sürətli inkişaf yoluna qədəm qoyması artıq dünya birliyində də yüksək qiymətləndirilir. Hazırda dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının öz tədbirlərini Azərbaycanda keçirmələri müstəqil dövlətimizin nüfuzundan xəbər verir. Ə.Qarayev Azərbaycan - UNESCO münasibətlərinin inkişafında, qarşılıqlı əlaqələrin möhkəmlənməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın əvəzsiz xidmətlərini xüsusi vurğulayıb.

Qeyd edib ki, Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən 43-cü sessiya 2019-cu il iyunun 30-dan iyulun 10-dək Bakı şəhərində keçiriləcək. Həmçinin həmin sessiyada Azərbaycan bir il müddətinə komitənin sədri seçilib. Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin UNESCO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasından xəbər verir.

Diqqətə çatdırılıb ki, bu gün onlarla mədəni irs nümunəmiz UNESCO-nun mədəni irs siyahısında qorunur. İlk olaraq İçərişəhər və Azərbaycan muğamı bu siyahıya daxil edilib. Hazırda nazirliyin nəzdində fəaliyyət göstərən komissiya Şəki şəhərinin və onun tarixi hissəsinin siyahıya daxil olması ilə bağlı işlər görür.

UNESCO-nun Ümumdünya İrs Komitəsinin fəaliyyəti və yaranması haqqında iştirakçılara məlumat verən nazir bildirib ki, bu gün dünyada 1500-ə yaxın abidə komitə tərəfindən qorunur. Nazir Azərbaycanda təşkil ediləcək sessiyanın əsas iclaslarının Bakı Konqres Mərkəzində baş tutacağını və sessiyaların UNESCO və BMT-nin saytı vasitəsilə birbaşa yayımlanacağını da diqqətə çatdırıb: **"Sessiyada xüsusi proqramlar həyata keçiriləcək. Bu proqramlar "Gənc peşəkarların forumu" və "Abidə menecerlərinin forumu"dur".**

Tədbirdə Mədəniyyət Nazirliyinin şöbə müdiri Vasif Eyvazzadə isə UNESCO-nun Ümumdünya İrs Komitəsinin yaranması, tərkibi və fəaliyyəti haqqında məlumat verib.

İclasa yekun vuran Əbülfəs Qarayev bir daha diqqətə çatdırıb ki, Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliği ilə yanaşı, beynəlxalq səviyyədə dünya irsinin mühafizəsinə dəstək olmaqdır. Bu məqsədlə ölkəmiz müstəqilliyini bərpa etdiyi vaxtdan etibarən UNESCO ilə sıx əməkdaşlıq münasibətləri qurub və təşkilatın fəaliyyətinə öz töhfəsini verib. 2013-cü ildə UNESCO-nun Qeyri-maddi Mədəni İrsin Mühafizəsi üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına uğurla ev sahibliyi etmiş Azərbaycanda eyni müvəffəqiyyətlə hər iki ildən bir UNESCO-nun rəsmi tərəfdaşlığı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir.

Sonra iclas Təşkilat Komitəsinin görəcəyi işlərin müzakirəsi ilə davam edib.

# Bişkekdə TürkPA-nın Ətraf mühit və Təbii Ehtiyatlar Komissiyasının dördüncü iclası olub



Bişkekdə Qırğızıstan Joqorku Keneşinin (parlament) ev sahibliyi ilə Türkdilli Ölkələri Parlament Assambleyası (TürkPA) Ətraf mühit və Təbii Ehtiyatlar Komissiyasının dördüncü iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasın gündəliyinin əsas mövzusu "Genetik Modofikasiya Olunmuş Orqanizmlər-Genetik Modofikasiya Olunmuş Orqanizmlərin yayılmasının təsirləri" olub.

Tədbirdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyədən olan parlamentarilər iştirak edib.

Toplantıya TürkPA-nın Ətraf Mühit və Təbii Ehtiyatlar Komissiyasının və Azərbaycan Milli Məclisinin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov başçılıq edib.

Ə.Əmiraslanov çıxışında bu məsələ ilə bağlı üzv ölkələrdəki vəziyyət və görülən işlər haqqında məlumatın verib. O, bu il aprelin 16-da İstanbulda komissiya çərçivəsində "Geni dəyişdirilmiş orqanizmlər: Qanunvericilik və təcrübə" adlı seminarın əhəmiyyətini vurğulayıb. Daha sonra o qeyd edib ki, TürkPA-ya üzv ölkələr florasının zənginliyi ilə fərqlənir və bir çox kənd təsərrüfatı bitkilərinin yabanı əcdadları bu ölkələrdə bitir. Buna görə də, qanunvericilik sistemimizi yaxşılaşdırmaqla, bu zəngin bioloji müxtəlifliyi qoruyub saxlamaq və elmin əldə etdiyi nailiyyətlərdən faydalanmaq lazımdır.

Ə.Əmiraslanov vurğulayıb ki, bu baxımdan Komissiya üçün bu mövzuda iclasın keçirilməsi, hazırkı vəziyyətin araşdırılması, qanunvericilikdə mövcud olan boşluqların təhlil edilməsi və üzv ölkələr arasında müsbət təcrübənin yayılması vacibdir.

TürkPA Ətraf Mühit və Təbii Ehtiyatlar Komissiyasının sədr müavini və Türkiyə Böyük Millət Məclisinin üzvü Recep Şeker iclasın əsas hesabat məruzəsi layihəsini təqdim edib.

Komissiyanın katibi Emin Həsənov bu il aprelində Türkiyə Böyük Millət Məclisinin ev sahibliyində İstanbulda keçirilən "Geni Dəyişdirilmiş Orqanizmlər və Tullantıların İdarə Olunması: Qanunvericilik və Təcrübə" seminarlarının yekun hesabat layihələrini təqdim edib.

Parlamentarilər gündəliyin əsas maddəsi ilə bağlı bütün üzv ölkələrdə olan potensialı müzakirə edib və arzuolunmaz nəticələrdən yan keçmək üçün bütün bu məsələlərin nəzarət altında həyata keçirilməli olduğunu vurğulayıblar.

Komissiya Türkiyədə keçirilməsi nəzərdə tutulan TürkPA-nın 8-ci plenar iclasına təqdim ediləcək məsələ ilə bağlı hesabat məruzəsi və tövsiyə qərarını, eləcə də İstanbulda keçirilən seminarların yekun hesabat layihələrini təsdiq edib. Komissiyanın növbəti beşinci iclasının Türkiyədə keçirilməsi ilə bağlı qərar qəbul edilib.

# Çinin Liaonin vilayəti ilə Azərbaycan arasında iqtisadi və mədəni forum keçirilib



Çinin Şenyan şəhərində Liaonin vilayəti ilə Azərbaycan arasında iqtisadi və mədəni forum keçirilib.

AZƏRTAC xəbər verir ki, Liaonin vilayətinin Xarici Ölkələrlə Dostluq Cəmiyyətinin sədri Li Çenci rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verərək deyib ki, onlar müxtəlif layihələr vasitəsilə xarici ölkələrlə əlaqələrin hərtərəfli inkişafına çalışırlar.

Li Çenci Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Li Syaolinin bu yaxınlarda Azərbaycana səfər etdiyini, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə əməkdaşlıq məsələlərini müzakirə etdiyini xatırladıb. O, belə forumların Liaonin vilayətində Azərbaycanın daha yaxşı tanıdılması baxımından əhəmiyyətini vurğulayıb.

Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov iki ölkə arasında münasibətlərin müxtəlif sahələr üzrə inkişaf etdiyini, bu məsələdə yüksək səviyyəli səfərlərin vacib rol oynadığını deyib. Bildirib ki, Azərbaycanın xarici siyasətində Çin ilə əlaqələrin genişlənməsi prioritet istiqamət kimi müəyyən edilib. O, ölkələrimizin müxtəlif bölgələri arasında da əməkdaşlığın hər iki tərəf üçün faydalı olduğunu deyərək, iqtisadi layihələrin icrasının, mədəni tədbirlərin təşkilinin bu əməkdaşlığa böyük töhfələr verdiyini deyib.

Qaradağ rayonu haqqında məlumat verən S.Mikayılov bildirib ki, əlverişli coğrafi mövqeyi olan rayon, respublikanın iri neft-qaz və qeyri-neft müəssisələrinin yerləşdiyi sənaye mərkəzlərindən biridir. O, çinli iş adamlarını Azərbaycandakı əlverişli biznes və sərmayə mühitindən yararlanmağa, Qaradağ rayonu ərazisində yaradılmaqda olan Ələt Azad İqtisadi Zonasında istehsal və xidmətlərin qurulmasında yaxından iştiraka dəvət edib.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktorunun baş müşaviri Rəşad Kərimov liman və Ələt Azad İqtisadi Zonası haqqında təqdimatla çıxış edib. Bildirib ki, Ələt qəsəbəsindəki yeni müasir limanın illik aşırma potensialı 15 milyon ton yük, həmçinin 100 min TEU konteyner təşkil edir. İkinci mərhələdə limanın imkanları 25 milyon ton yükə və 500 min konteynerə çatacaq, növbəti mərhələdə isə 1 milyon konteynerədək artacaq. Ən son texnoloji avadanlığın quraşdırıldığı liman Şimal və Cənub, Şərq və Qərb arasında, habelə Çin yüklərinin müxtəlif istiqamətlərdə daşınmasında əhəmiyyətli rola malikdir. Diqqətə çatdırılıb ki, çinli sahibkarlar Ələt Azad İqtisadi Zonasının imkanlarından istifadə edərək, burada istehsal sahələri yaradaraq öz məhsullarını qonşu ölkələrə ixrac edə bilərlər.

Tədbirdə Azərbaycanın muğam üçlüyü xalq mahnılarımızı, muğamlarımızı ifa edib.

Sonra çinli iştirakçıların Azərbaycanla bağlı sualları cavablandırılıb, ölkəmizə dair videoçarxlar nümayiş olunub, broşürlər paylanılıb.

Azərbaycan nümayəndə heyəti Şenyan şəhərindəki istehsal müəssisələrindən birinə baş çəkib, əməkdaşlıq məsələlərini müzakirə edib.

Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov yerli kütləvi informasiya vasitələrinə müsahibələrində Azərbaycan-Çin münasibətlərindən, ölkəmizin biznes və sərmayə mühitindən danışıb.

# Hacıqabulda Bakının daşnak-bolşevik işğalından azad olunmasının 100 illiyi qeyd edilib




"Türkiyə Universitetləri Məzunları" İctimai Birliyi (TUMİB) Hacıqabulda "Qafqaz Türk-İslam Ordusunun Bakı zəfərinin 100 illiyi" adlı mərasim keçirib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, rayondakı Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə İctimai Birliyin sədri Çingiz Bayramov 1918-ci il sentyabrın 15-də Azərbaycanın Milli Ordusu Qafqaz İslam Ordusu ilə birlikdə güclü müqavimətə baxmayaraq, dörd mindən çox əsgər və zabiti şəhid vermək bahasına da olsa, Bakını və digər qəzaları daşnak-bolşevik işğalından azad etdiyini bildirib. Birliyin sədri gənclər arasında Qafqaz İslam Ordusu və onun Bakının azad edilməsi istiqamətində apardığı mübarizə barədə maarifləndirmə işinin aparılmasının önəmli olduğunu vurğulayıb.

Rayon icra hakimiyyəti başçısının müavini Zeynəb Yunisli tədbirdə çıxış edərək qeyd edib ki, Stepan Şaumyan 1918-ci ilin mart-iyul aylarında Bakı Sovetinə tabe olan daşnak silahlı dəstələrindən və bolşevik hərbi birliklərindən istifadə edərək Azərbaycanın Bakı, Şamaxı, Quba və başqa qəzalarında qırğınlar törədib, yüzlərlə yaşayış məskənini dağıdıb, dinc insanları amansızcasına qətlə yetirib. Lakin Azərbaycan və Türk əsgərlərinin, zabitlərinin igidliyi nəticəsində qısa müddətdə Bakı və digər əyalətlər ermənilərdən ibarət olan daşnak-bolşevik qüvvələrindən azad olunub.

Digər çıxış edənlər Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin gündən-günə daha da möhkəmləndiyini vurğulayıb, Azərbaycan Ordusunun öz sələflərinin yolunu şərəflə davam etdirdiyinə və yaxın gələcəkdə qəhrəman Azərbaycan əsgəri işğal altında olan ərazilərimizin düşmən tapdağından azad edəcəklərinə əminliklərini ifadə ediblər.

Tədbir başa çatdıqdan sonra rayonun Qubalıbaloğlan kəndində daşnaqlarla vuruşaraq qəhrəmancasına həlak olan Azərbaycan və Türk əsgərlərinin məzarları ziyarət olunub, şəhidlərin şərəfinə ucaldılan abidə önünə gül dəstələri qoyulub.

# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Mərkəzi Klinika ilə əməkdaşlıq edəcək

Sentyabrın 14-də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) və Mərkəzi Kliniki Xəstəxana arasında əlaqələrin qurulması və genişləndirilməsinə dair əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənədi agentliyin İdarə Heyətinin sədri Zaur Əliyev və Mərkəzi Klinikanın baş direktoru İxtiyar Sultanov imzalayıblar.

Bu barədə AZƏRTAC-a agentliyin İctimaiyyətlə əlaqələr sektorundan bildirilib.

Tədbirdə çıxış edən agentliyin İdarə Heyətinin sədri bildirib ki, əməkdaşlıq tibb müəssisələrinin səmərəli fəaliyyətinin təşkilinə, ayrı-ayrı ixtisaslar üzrə tibbi xidmətlərin müasir tələblərə uyğun qurulmasına, göstərilən tibbi xidmətlərin keyfiyyətinin artırılmasına, tibb personalının bilik, bacarıq və praktik təcrübəsinin təkmilləşdirilməsinə, innovativ müalicə üsulları və tibbi texnologiyaların tətbiqinə dair maarifləndirməyə və dolayısı ilə əhalinin məmnunluq səviyyəsinin yüksəldilməsinə, eləcə də müxtəlif sahələrdə yerli və beynəlxalq mütəxəssislərin iştirakı ilə seminar, konfrans və təlimlərin təşkili işlərinin aparılmasına öz töhfəsini verəcək.

Mərkəzi Klinikanın baş direktoru öz növbəsində agentlik ilə əməkdaşlığın səmərəli nəticə verəcəyinə əminliyini ifadə edib.

Tərəflər arasında imzalanan memoranduma tibb sahəsində müasir müalicə və müayinə üsulları barədə seminarların və tibbi xidmətlərin təşkili üzrə təlimlərin keçirilməsi, Mərkəzi Klinikanın və pilot layihə müddətində agentliyin tabeliyinə verilmiş tibb müəssisələrinin mütəxəssislərinin birgə iştirakı ilə yüksək texnologiya tələb edən tibbi müdaxilələrin həyata keçirilməsi kimi məsələlər daxil edilib.

# Nikol Paşinyan ölkəni dövlətçilik təfəkkürü zəminində deyil, küçə psixologiyası ilə idarə etməyə çalışır



Həsən HƏSƏNOV,
"Xalq qəzeti"nin baş redaktoru, Əməkdar jurnalist

Beynəlxalq münasibətlər sisteminin tənəzzülə uğradığı bir məqamda geosiyasi ziddiyyətlərin kəskinləşməsi dövlətlərin konstruktiv əlaqə şanslarını getdikcə azaldır. Qlobal miqyasda geosiyasi durum son dərəcə həssas bir mərhələyə qədəm qoysa da, böyük dövlətlər, dünya nizamına təsir gücünə malik siyasi mərkəzlər böhrandan çıxış yolu axtarmaq əvəzinə, onu daha da dərinləşdirirlər. Üçüncü minilliyin əvvəlindən başlayan proseslər onu göstərir ki, hələlik ABŞ-ın razılığı olmadan beynəlxalq münasibətlər sistemində real dəyişikliklər etmək, qlobal təhlükəsizliyə yeni təhdidlərin qarşısını almaq imkansızdır. Müasir dünyada strateji balansın və sabitliyin təminatı mühüm vəzifə kimi ön plana çıxsa da, geosiyasi qərarların qəbulu mexanizmi təkmil deyil, böyük dövlətlər isə problemlərin açıq və ədalətli müzakirəsindən yayınırlar. Planetin gələcəyini, bəşəriyyətin taleyini təhdid edən yeni təhlükələr, risklər, şiddətlənən terror və separatizm dalğası dünyanı daha dərin qatlarda parçalamaqdadır. Qlobal miqyasda baş verən hadisələrin təhlili aydın göstərir ki, böyük dövlətləri yalnız öz maraqlarının təmini düşündürür, onların radikal addımlarının əsas səbəbi də budur. İkili standartlar, xristian həmrəyliyi beynəlxalq hüquq sistemini getdikcə arxa plana daha çox sıxışdırır. Milli-radikal mövqenin güclənməsi Qərbdə qarşısıalınmaz prosesə çevrilməkdədir. Ölkələrin idarəetmə, intellektual, strateji və maliyyə imkanlarını nəzarətdə saxlamaq üçün yeni-yeni təsisatlar, mexanizmlər formalaşdırılır. Təbii ki, dünyada baş verən proseslərin fonunda Cənubi Qafqazda da risklər çoxalır. Vaxtilə SSRİ-ni dağıtmaq məqsədilə milli münaqişələri, o cümlədən, ilk növbədə, Dağlıq Qarabağda alovlanan müharibə ocağını körükləyən Qərb bu gün də məkrli planlarını genişləndirir. ABŞ və Rusiya arasında Cənubi Qafqaz uğrunda savaş kəskinləşməkdədir. Gec və ya tez Ermənistanın sahibinin kim olduğu aydınlaşacaq. Çünki Ermənistanın yalan və yaltaqlıq üzərində qurulan siyasəti artıq iflasa uğrayıb, "erməni baharı"nın sonu çatıb. Ermənistanda baş verən iğtişaşlara, küçə yürüşlərinə "mədəni inqilab" donu geyindirməyə çalışan Qərb dairələri erməni diasporunun uydurmalarına aldanıb Ermənistanı Rusiyanın ağuşundan qoparacaqlarına inanırdılar. Görünür, Qərb geosiyasi, ideoloji-siyasi aspektdə bunun o qədər də asan olmadığının fərqinə varmamışdı. Az sonra hamıya bəlli oldu ki, "azad ölkə" kimi ictimai şüura sırınan bu məmləkətdə demokratiya və insan hüquqlarından əsər-əlamət yoxdur. Serj Sarkisyanın hərbi xunta rejimini əvəzləyən Nikol Paşinyan iqtidarı sürətlə uçuruma yuvarlanmaqdadır. Qərbin və Paşinyanın Ermənistanın yönünü dəyişmək niyyətləri ölkəni qarşıdurma vəziyyətinə salıb. İlk vaxtlar Paşinyanın müstəqil siyasət yeritməyə qabil olub-olmaması barədə fikirlər gündəmə hakim kəsilsə də, çox qısa zamanda bəlli oldu ki, Rusiyanın qoyduğu çərçivədən çıxmaq Ermənistana baha başa gələ bilər. Soçidə Avrasiya İqtisadi İttifaqının toplantısında "rusiyapərəst" yox, "ermənipərəst" siyasətçi olduğunu dilə gətirən Nikol Paşinyan özü də artıq siyasətçi olmadığını anlamağa başlayıb. Onun "Rusiya ilə yeni strateji əməkdaşlıq modeli" barədə fikirləri də xəstə təxəyyülün məhsulundan başqa bir şey deyil. Ermənistan cəmiyyətində obyektivliyini az-çox qoruyub saxlayan politoloqlar da bunun bir feyk olduğunu etiraf edirlər. Moskva ilə bütün sahələrdə əməkdaşlığın inkişafına çalışacağını bəyan edərək, böyük ümidlərlə bu günlərdə Rusiyaya səfər edən Nikol, heç şübhəsiz ki, uğursuzluğa düçar olacağını əvvəlcədən görürdü. Ancaq baş nazir özünün siyasi, ideoloji və diplomatik hazırlıqsızlığını pərdələmək üçün daxildə ictimai rəylə spekulyasiya etməkdən belə çəkinmədi. Paşinyanın boynunu bükərək Moskvada qapıları döyməyə, "sədaqət" andı içməyə vadar edən səbəblər çoxdur. O, yaxşı bilir ki, Ermənistanın siyasəti, iqtisadiyyatı və təhlükəsizliyi birbaşa Rusiyadan asılıdır. Ermənistanın Moskvadan umacağı çoxdur, lakin Rusiyanın bu qondarma, cırtdan dövlətin istəklərini yerinə yetirmək imkanları məhduddur. Bu səbəbdən də Paşinyan gah nala vurur, gah da mıxa. Rusiya və Qərbin arasında vurnuxmaq heç də yaxşı gələcək vəd etmir və şimal qonşumuzun xəyanətkar forpostdan narazılığı getdikcə güclənir. Cənubi Qafqazın ən demokratik ölkəsi Azərbaycanın beynəlxalq nüfuzu və qüdrəti günbəgün artır. Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu əlaqələndirən önəmli layihələrin təşəbbüskarıdır, müstəqil siyasət yeridir, bütün dövlətlərlə qarşılıqlı-faydalı əməkdaşlıq əsasında bərabərhüquqlu subyekt kimi əlaqə qurur. "Şimal-Cənub", "Şərq-Qərb", "Cənub-Qərb" nəqliyyat dəhlizləri böyük bir geosiyasi məkanın xəritəsini dəyişməklə Azərbaycana geosiyasi qovşaq statusu qazandırıb. Azərbaycan Silahlı Qüvvələri bu gün dünyanın ən güclü 50 ordusu sırasındadır. Aprel döyüşləri, Günnüt əməliyyatı göstərdi ki, Ermənistanın manevr imkanları tükənib, ölkəmiz həm diplomatiya, həm də hərbi sahədə düşməni diz çökdürməyə və torpaqlarını azad etməyə qadirdir. Bu fakt düşməni vahiməyə salır, Qərblə Rusiya arasında seçimə sövq edir. İki güc arasında vurnuxan Ermənistanın etibarsızlığı Rusiyada siyasi-analitik müstəvidə ciddi aqressiya və hiddət doğurur. Paşinyanın Moskvada qeyri-ciddi, diletant fiqur kimi qarşılanmasının, öz ölkəsinə əliboş, üzüqara qayıtmasının əsas səbəblərindən biri də budur. Onun Ermənistanda verdiyi müsahibələrdən, populist çıxışlarından və Moskvada səsləndirdiyi fikirlərdən bəlli olur ki, erməni baş nazir Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə dumanlı və qeyri-obyektiv təsəvvürə malikdir. O, danışıqların Dağlıq Qarabağ separatçıları ilə aparılmalı olduğunu iddia etsə də, az sonra özünü təkzib edərək Ermənistanın münaqişədə bir tərəf olduğunu bildirir. Deməli, Dağlıq Qarabağdakı separatçıların, terrorçuların danışıqlarda tərəf olması barədə səsləndirilən iddialar yüngül desək, baş nazirin sərsəm xülyasından başqa bir şey deyil. Moskva səfərindən əvvəl Paşinyana yaxın kütləvi informasiya vasitələri qarşıdakı danışıqlardan gözləntilər və diplomatik uğurlar barədə materiallar dərc edir, müxtəlif versiyalar səsləndirirdilər. Baş nazir Ermənistanın Rusiyaya sədaqətinə dair difiramblar söyləməklə güzəştlər qoparacağına ümid etsə də, Putinin istehzalı baxışlarını görəndə yanıldığını anladı. Nikolun Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın "yeni" mövqeyinə dəstək qazanmaq, Qazpromdan alınan qazın qiymətində güzəştlər əldə etmək, Azərbaycana silah satışının və ölkələrarası hərbi əməkdaşlığın qarşısını almaq, Ermənistana investisiyalar cəlb etmək arzusu ürəyində qaldı. Təkcə Nikol yox, bütün Ermənistan ictimaiyyəti bu səfərin yekunlarından, daha doğrusu, yekunsuzluğundan ciddi məyusluğa düçar oldu. Erməni iş adamları ilə görüş də bir nəticə vermədi. Nikol Paşinyanın uğursuzluğu bununla bitmədi, onu öz ölkəsində daha bir sürpriz gözləyirdi. Sentyabrın 11-də Ermənistanın iki xüsusi xidmət orqanının - Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Artur Vanetsyanla Xüsusi İstintaq Komitəsinin sədri Sasun Xaçaturyan arasında telefon danışığının audioyazısının İnternetdə yayımlanması ölkədə gərginliyi daha da artırdı. Paşinyan Ermənistanda həyata keçirilən həbslərdən xəbərsiz olduğunu bildirərək, baş verən olayları şantaj adlandırsa da, audioyazı baş nazirin növbəti yalanını ifşa etdi. İstintaqçılar sabiq prezident Robert Köçəryanın, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Yuri Xaçaturovun həbsi barədə qərarın siyasi sifariş olduğunu və Nikol Paşinyan tərəfindən verildiyini açıq etiraf etmişlər. Telefon danışığı zamanı İstintaq Komitəsinin sədrindən Yuri Xaçaturovun barəsində həbs-qətimkan tədbirinin seçilməsinə hazırlıq getdiyini eşidən Təhlükəsizlik Xidmətinin rəhbəri ciddi narahatlıq keçirərək, "bircə Xaçaturovu yox, KTMT rəhbəridir, tam biabır olarıq" deyir. Komitə sədri Sasun Xaçaturyan isə Artur Vanetsyana Rusiya ilə "razılaşma" olduğunu söyləyərək, baş nazirlə danışmağı məsləhət görür. Öz rəqiblərini, Rusiyanın adamlarını, vaxtilə zərbə aldığı şəxsləri aradan qaldırmağa qərar verən baş nazir bu gün ciddi təlaş və qorxu içərisindədir. Əks təqdirdə o, "Nikol Paşinyana nə isə olsa, o zaman xalq küçələrə çıxacaq və potensial qatil hesab etdiyi şəxslər üzərində məhkəmə quracaq" deməzdi. Görünür, Paşinyan özünü baş nazir postunda deyil, yenə küçə mitinqlərində "Soros uşaqları"nın yanında sərsəm fikirlər söylədiyi yerdə hiss edir. Aqillər doğru deyiblər: **"Bundan sonra hara gedəcəyini bilmək üçün, bundan əvvəl haradan gəldiyini bilmək lazımdır".** Nikol Paşinyan küçədən gəlib, qayıdacağı yer də küçə olacaq.

*Azərbaycan ədliyyəsi - 100*

# Azərbaycanda məhkəmə-hüquq sistemi yeni inkişaf mərhələsinə qədəm qoyub

## *Ölkəmizdə ədliyyə sahəsində həyata keçirilən genişmiqyaslı islahatlar insan hüquq və azadlıqlarının təminatına etibarlı zəmin yaradır*

Dinamik inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan Azərbaycanda bütün sahələrin tərəqqisini təmin edən ardıcıl islahatlar həyata keçirilir. Bu mütərəqqi reformalar ölkəmizin hüquq sistemində də uğurla davam etdirilir. Ümumiyyətlə, respublikamızda demokratik hüquqi dövlət quruculuğunun qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti kimi bütün fundamental prinsipləri ölkənin əsas qanununda təsbit olunub. Respublikamızda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında ardıcıl olaraq ədliyyə sahəsində də müasir çağırışlara uyğun hüquqi islahatlar həyata keçirilir.

Əvvəla qeyd edək ki, ölkəmizdə ədliyyə sisteminin zəngin tarixi var. 1918-ci ildə milli dövlətçiliyimizin çox mühüm halqalarından biri olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından sonra ədliyyə sahəsində də effektiv addımlar atılıb. Bu dövrdə təsis olunmuş Ədliyyə Nazirliyi öz işinə ilk növbədə ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin bərpası ilə başlayıb, məhkəmə aparatları tədricən işini bərpa edib, hüquq ədəbiyyatı kitabxanası yaradılaraq hüquq kursları təşkil edilib və bununla da peşəkar kadrların formalaşdırılması işinə start verilib.

Həmin dövrdə ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra mühüm qərarlar qəbul edilib. 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilib. Cəzaçəkmə yerləri ilə bağlı aparılan işin ədalət mühakiməsinin həyata keçirilməsində əhəmiyyəti nəzərə alınaraq hökumətin 1919-cu il 11 avqust tarixli qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilib, nazirliyin təşəbbüsü ilə "İstintaq hissəsinin quruluşu və gücləndirilməsi haqqında", "Məhkəmə idarəsi sahəsində vəzifələrə namizədlər haqqında", "Azərbaycan andlı iclasçılar məhkəməsinin təsis edilməsi haqqında", AXC-nin yaranmasından 1,5 il keçməsi münasibətilə ümumi amnistiya haqqında qanun və digər qanunlar parlamentin müzakirəsinə çıxarılıb. Bununla yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğramasından sonra inqilab komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilib, Xalq Ədliyyə Komissarlığı yaradılıb və bu qurumun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilib.

Bir məqama xüsusi olaraq toxunmaq lazımdır. Belə ki, ədliyyə orqanlarının dəfələrlə ləğv edilib yenidən yaradılması və digər neqativ hallar ədliyyə sisteminin sabit struktura malik olmasına və işinin təşkilinə ciddi əngəllər törədirdi. Ədliyyə Nazirliyinin yenidən yaradılması və tam təşkili, bu sahədə ardıcıl, məqsədyönlü və sistemli tədbirlərin görülməsi, islahatların aparılması görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edilib və bununla da Azərbaycanın ədliyyə tarixində yeni mərhələ başlanıb. Bundan sonra Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirib, əhaliyə hüquqi yardımı yaxşılaşdırıb, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin edib, ümumiyyətlə, ədliyyə işi kifayət qədər təkmilləşdirilib.



1991-ci ildə isə Azərbaycanın müstəqilliyini əldə etməsindən sonra ölkəmizin qarşısında duran mühüm vəzifələrdən biri ədliyyə orqanlarının səmərəli fəaliyyətini təşkil etmək və bu sahədə məqsədyönlü, islahat xarakterli tədbirlər həyata keçirmək idi. 1993-cü ilin iyununda Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsindən sonra bu sahədə həyata keçirilən sistemli tədbirlər sayəsində mühüm nəticələr və nailiyyətlər əldə edildi. Ulu öndər Heydər Əliyev haqlı olaraq bəyan etmişdir ki, yeni siyasi şəraitdə hüquqi və demokratik dövlətin qurulması möhkəm ədliyyə sisteminin formalaşdırılması ilə sıx bağlıdır. Həqiqi mənada möhkəm ədliyyə sistemi olan dövlətlərdə vətəndaşların hüquq və azadlıqları, qanun qarşısında bərabərliyi, ən başlıcası, hüququn aliliyi yüksək səviyyədə təmin olunur. Məhz bu dövrdə ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi və sabit inkişaf yoluna çıxarılması istiqamətində görülən tədbirlər sırasında məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi ilə bağlı atılan addımlar da öz çoxşaxəliliyi və mütərəqqiliyi ilə seçilirdi. Ümummilli liderin təşəbbüsü ilə Ədliyyə Nazirliyinin üzərinə yeni vəzifələr qoyulmuş, nazirlik dövlətin hüquq siyasətini həyata keçirən əsas orqanlardan birinə çevrilmişdir. Ulu öndər Heydər Əliyevin "İslah-əmək müəssisələrində və istintaq təcridxanalarında qanunçuluğun möhkəmləndirilməsi, cəzaların icrasının təmin edilməsi və hüquqi islahatların həyata keçirilməsinə dair tədbirlər haqqında" 1999-cu il 11 fevral tarixli, "Azərbaycan Respublikasında hüquqi islahatların həyata keçirilməsi, məhkəmələrin, islah-əmək müəssisələrinin və istintaq təcridxanalarının işinin yaxşılaşdırılması ilə əlaqədar əlavə tədbirlər haqqında", eləcə də "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin istintaq təcridxanalarının Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin tərkibinə verilməsi haqqında" 1999-cu il 9 oktyabr tarixli fərmanları respublikada ədliyyə sahəsində köklü islahatların aparılmasında dönüş nöqtəsi olmuşdur. Ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması məqsədilə Ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən edildi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi - referendum vasitəsilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasına məhkəmə və hakimlərin fəaliyyətini tənzimləyən bir sıra normaların daxil edilməsi ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsini təmin edib. Ulu öndər Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında 1998-ci il 1 dekabr tarixində "Məhkəmələr və hakimlər haqqında" qanun qəbul edilib, bundan sonra məhkəmə-hüquq islahatları ardıcıl xarakter alıb. 2002-ci ilin 24 avqust tarixində referendum əsasında Azərbaycan Respublikasının Konstitusiyasına edilmiş əlavə və dəyişikliklər respublikada ədliyyə orqanlarının fəaliyyətini daha da təkmilləşdirib. Konstitusiyanın 96-cı maddəsinə edilmiş dəyişikliklə Ali Məhkəməyə qanunvericilik təşəbbüsü hüququ verilib, hər bir vətəndaşın hüquq və azadlıqlarının bərpası məqsədilə Konstitusiya Məhkəməsinə birbaşa müraciət hüququ təmin edilib. Bununla əlaqədar "Konstitusiya Məhkəməsi haqqında" qanuna da əlavə və dəyişikliklər olunub, ölkə vətəndaşlarının Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət imkanı yaradılıb.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev ədliyyə orqanlarına qayğı ilə yanaşır, bu strukturun işinin səmərəli qurulmasına və xalqa ləyaqətlə xidmət etməsinə xüsusi diqqət yetirir. Təsadüfi deyil ki, ötən müddət ərzində ədliyyə orqanlarının inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilib. Ədliyyə Nazirliyinin fəaliyyətinin normativ-hüquqi əsaslarının təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2006-cı il 18 aprel tarixində "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"ni təsdiq edib. Həmin il avqustun 17-də dövlətimizin başçısının imzaladığı "Ədliyyə orqanlarının inkişafı haqqında" Fərman isə Azərbaycan ədliyyəsinin fəaliyyətinin təkmilləşdirilməsi işində mühüm əhəmiyyətə malik olub. Bununla da Ədliyyə Nazirliyinə hüquq-mühafizə orqanı statusu verilib, yeni vəzifələr həvalə edilməklə, onun strukturu təkmilləşdirilib. Həmçinin xüsusilə bölgələrdə regional ədliyyə şöbələrinin və rayon (şəhər) qeydiyyat şöbələrinin yaradılması yerli əhalinin bu orqanlara müraciət imkanlarını asanlaşdırıb. Ədliyyə Nazirliyi yanında Hüquq-Tədris Mərkəzinin əsasında Ədliyyə Akademiyasının yaradılması da bu istiqamətdə atılmış mühüm addımlardan biridir. Bu, ədliyyə sahəsində kadr hazırlığı məsələlərinin uğurla həyata keçirilməsinə mühüm töhfələr verib. Ədliyyə Nazirliyi tərəfindən İKT-nin tətbiqi daim diqqətdə saxlanılır və bu sahədə davamlı işlər görülür. Mühüm məqamlardan biri də budur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan hüquqi islahatlar çərçivəsində qabaqcıl xarici təcrübələrin öyrənilməsinə, beynəlxalq əlaqələrin inkişafına böyük önəm verilərək xarici ölkələrin ədliyyə qurumları ilə səmərəli əməkdaşlıq həyata keçirilir.

2009-cu ildə isə dövlət başçısı tərəfindən "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı"nın qəbul olunması ədliyyə və məhkəmə sahəsində islahatların gələcək inkişaf perspektivlərini müəyyən etmişdir. Azərbaycan ədliyyəsinin dinamik inkişafının təmin olunmasına, yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsinə, normativ-hüquqi və maddi-texniki təminatın yaxşılaşdırılmasına, kadr potensialının, ədliyyə orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş bu Proqram çərçivəsində kompleks tədbirlər həyata keçirilir.

Ədliyyə sahəsini əhatə edən reformalar məhkəmə-hüquq sahəsində də uğurla davam etdirilir. Prezident İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlarına uyğun olaraq məhkəmə sistemi də daim təkmilləşdirilir, məhkəmə hakimiyyətinin müstəqilliyi möhkəmləndirilir, qanunvericilik və institusional islahatlar aparılır, məhkəmələrin infrastrukturu yüksək statusuna uyğun yaxşılaşdırılır və müasirləşdirilir. Prezident İlham Əliyev də qeyd edib ki, Azərbaycan dünya birliyinə inteqrasiya yolunu seçib, müasirləşir və zənginləşir. Siyasi islahatlar, məhkəmə-hüquq sistemində islahatlar paralel şəkildə aparılır.

Bu sahədə aparılan islahatlara nüfuzlu beynəlxalq qurumlar tərəfindən də böyük maraq göstərilir, ölkəmizin nailiyyətləri yüksək qiymətləndirilir. Belə ki, Avropa Şurası Azərbaycanda hakimlərin seçim prosedurunu şəffaflığı və obyektivliyinə görə fərqləndirərək örnək kimi dəyərləndirib və digər dövlətlərə tövsiyə edib. Həmçinin avropalı ekspertlər ədalət mühakiməsi sistemində səmərəli islahatların aparılması, məhkəmələrin unikal infrastrukturunun yaradılması, müasir informasiya texnologiyalarının və yeniliklərin tətbiqində Azərbaycanın bir çox Avropa ölkələrinə nümunə olduğunu qeyd edirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi ilə bağlı imzaladığı Sərəncam da ədliyyə sahəsində islahatların həyata keçirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Ümumiyyətlə, bu Sərəncamın imzalanması penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində tarixi addımdır. Təsadüfi deyil ki, bəhs edilən Sərəncam Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin humanist siyasətinin növbəti təzahürü, həyata keçirilən sistemli və genişmiqyaslı hüquqi islahatların tərkib hissəsi kimi dəyərləndirilir. Sözügedən Sərəncamla qarşıya cəza siyasətinin humanistləşdirilməsi, cinayət-hüquq siyasətinin liberallaşdırılması, cinayətlərin dekriminallaşdırılması kimi mühüm məqsədlər qoyulub. Cəza siyasətinin humanistləşdirilməsi məqsədilə iki istiqamət müəyyən olunub. İstiqamətlərdən biri məhkəmələrin cəza təyin edən zaman sosial ədalətin bərpasına çalışmalarını, məhkumun islah edilməsi məqsədlərini rəhbər tutmalarını, cəza təyin etmənin ümumi əsaslarına ciddi riayət etmələrini özündə ehtiva edir. Digər istiqamət isə qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə cinayət-hüquq siyasətinin liberallaşdırılmasına nail olunmasından ibarətdir.

Bütövlükdə, diqqət yetirilən məqamlar deməyə əsas verir ki, Azərbaycanda ədliyyə sahəsində genişmiqyaslı islahatlar həyata keçirilir, ədliyyə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində görülən tədbirlər uğurlu nəticələr verir.

**Kərimova Tamilla Hüseynbala qızı,**

**Bakı şəhəri 46 saylı notariat kontorunun xüsusi notariusu**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Azərbaycanda sənaye parklarının yaradılması geniş vüsət alıb

*İndiyədək iri şəhərlərdə və regionlarda təşkil edilən sənaye parklarına rezidentlər tərəfindən 2,7 milyard ABŞ dollarına yaxın sərmayə yatırılıb*



Azərbaycanda Prezident İlham Əliyevin müəyyənləşdirdiyi ölkənin müasirləşdirilməsi strategiyasına uyğun olaraq innovativ əsaslı sənaye quruculuğu da diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə davamlı şəkildə həyata keçirilən siyasi və maddi dəstək tədbirlərinin nəticəsi kimi hazırda sənaye sektoru milli iqtisadiyyatımızın aparıcı sahələrindən birinə çevrilib. Həyata keçirilən uğurlu sənayeləşmə siyasətinə uyğun olaraq ölkədə yüzlərlə müasir sənaye müəssisəsi istifadəyə verilib. Bu istehsalatların ahəngdar fəaliyyəti nəticəsində daxili istehlakın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, eyni zamanda respublikamızın yeni ixrac imkanları yaranıb. Qısa müstəqillik tarixində Azərbaycanın dünya kosmos ailəsinin üzvünə çevrilməsi, xarici bazarlara ənənəvi mallarla yanaşı, yüksək rəqabət qabiliyyətinə malik hərbi təyinatlı məhsullar çıxartması son dərəcə qürurverici haldır. Bütövlükdə, son illərdə ölkədə metallurgiya, maşınqayırma, kimya, inşaat materiallarının istehsalı, qida və Azərbaycan üçün ənənəvi olan digər sənaye sahələri genişlənib, həmçinin yeni sənaye sahələri də formalaşıb. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılış mərasimindəki çıxışında respublikamızda sənayeləşmə siyasətinin uğurla həyata keçirildiyinə xüsusi diqqət çəkib. **"Azərbaycan öz sənaye potensialını müasirləşdirir, gücləndirir. Azərbaycanda sənayeləşmə siyasəti çox uğurla gedir. Bu ilin altı ayında qeyri-neft sənayemiz 8,8 faiz artmışdır. Bu, görülən işlərin nəticəsidir",** - deyə dövlət başçısı vurğulayıb.

### İRİ ŞƏHƏRLƏRDƏ VƏ REGİONLARDA SƏNAYE PARKLARININ YARADILMASI İLƏ SƏNAYE QURUCULUĞUNDA KEYFİYYƏTCƏ YENİ MƏRHƏLƏ BAŞLAYIB

Son illərdə ölkənin iri şəhərlərində və regionlarda sənaye parklarının və sənaye məhəllələrinin yaradılması geniş vüsət alıb ki, bununla da sənaye quruculuğunda keyfiyyətcə yeni mərhələ başlayıb. Sənaye parklarının və sənaye məhəllələrinin yaradılması respublikada innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin və bütövlükdə qeyri-neft sektorunun davamlı inkişafını şərtləndirir, həmçinin əhalinin istehsal sahəsində məşğulluğunun artmasına öz müsbət təsirini göstərir. Perspektivdə respublika miqyasında dörd sənaye mərkəzinin (Bakı, Sumqayıt, Mingəçevir və Gəncə) yaradılması hədəflənib. Beləliklə, ölkənin regionları da iqtisadi güc amilinə çevrilir. İqtisadiyyat Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi Vüsalə Quliyevanın "Yeni Azərbaycan"a verdiyi məlumata əsasən artıq Azərbaycanda kimya, təkrar emal, gəmiqayırma, yüksək texnologiyalar, yüngül sənaye, əczaçılıq sahələrində ixtisaslaşmış sənaye və texnologiyalar parkları fəaliyyət göstərir. Bu sənaye parklarının 50-yə yaxın rezidenti var. Sənaye parklarına 3,6 milyard dollar sərmayə qoyuluşu nəzərdə tutulub. İndiyədək rezidentlər tərəfindən sənaye parklarına 2,7 milyard ABŞ dollarına yaxın sərmayə yatırılıb. **"Növbəti mərhələdə 1 milyard dolları̇dək investisiya qoyuluşu və 7500-dək yeni iş yerinin açılması nəzərdə tutulur. Sənaye parklarında fəaliyyət göstərən müəssisələrdə tanker və gəmilər, elektron təhsil avadanlıqları, metal konstruksiyalar, maşınqayırma avadanlıqları, polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar, polipropilen, pestisidlər, müxtəlif növ sürtkü yağları, xortumlar və fitinqlər, kabellər, polimer məmulatlar, texniki qazlar, alüminium və plastik profillər, pambıq iplikləri və s. istehsal edilir. Hazırda sənaye parklarında tikintisi davam edən daha 7 sənaye müəssisəsinin 2018-ci ilin sonunadək, digərlərinin isə növbəti illərdə istismara verilməsi nəzərdə tutulur",** - deyə Vüsalə Quliyeva bildirib.

İqtisadiyyat Nazirliyinin rəsmisi vurğulayıb ki, sənaye parkları və məhəllələrinin rezidentləri üçün dövlət tərəfindən əlverişli investisiya mühiti və zəruri infrastruktur yaradılıb. Bütün bunların perspektiv layihələrə investisiya qoyuluşu üzrə sahibkarların xərclərini kifayət qədər azaltdığını nəzərə çatdıran Vüsalə Quliyeva deyib: **"Dövlət tərəfindən sənaye parklarının rezidentləri üçün bir sıra güzəştlər tətbiq edilir. Belə ki, sənaye parklarının rezidentləri qeydiyyata alındığı gündən etibarən 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eləcə də parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən, həmçinin gömrük rüsumundan azaddırlar. Sənaye parklarında rezidentlərin qeydiyyatı "bir pəncərə" sistemi ilə həyata keçirilir".**

### BALAXANI SƏNAYE PARKINA 5 REZİDENT TƏRƏFİNDƏN 23 MİLYON MANAT İNVESTİSİYA YATIRILIB

Yuxarıda vurğuladığımız kimi, artıq bölgələr də daxil olmaqla respublika üzrə bir neçə sənaye parkı fəaliyyət göstərir ki, onlardan biri də Balaxanı Sənaye Parkıdır. Sənaye parkı Prezident İlham Əliyevin 28 dekabr 2011-ci il tarixli müvafiq Sərəncamına əsasən yaradılıb. "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti Balaxanı Sənaye Parkının idarəedici təşkilatıdır.

V.Quliyeva bildirib ki, Balaxanı Sənaye Parkı 2017-ci ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Sənaye Parkı 7 hektar ərazidə yerləşir. Balaxanı Sənaye Parkının yaradılması ölkəmizdə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, qeyri-neft sektorunun, o cümlədən "yaşıl iqtisadiyyat"ın inkişafı, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması, Bakı şəhəri və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədinə xidmət edir. **"Sənaye parkının Balaxanı bərk məişət tullantılarının zərərsizləşdirilməsi poliqonuna, tullantıların çeşidlənməsi və yandırılması zavodlarına, o cümlədən əsas nəqliyyat qovşağına yaxın olması logistika, xammal və enerji təchizatına, eləcə də istehsal olunmuş məhsulun asanlıqla satış bazarına çıxarılmasına əlverişli imkan yaradır. Burada qeydiyyata alınan 5 rezident tərəfindən 23 milyon manat investisiya yatırılıb. Sənaye Parkında ilkin mərhələdə ümumilikdə 400-ə yaxın daimi iş yeri yaradılıb",** - deyə V.Quliyeva bildirib.

### BALAXANI SƏNAYE PARKI "YAŞIL İQTİSADİYYAT" QURUCULUĞUNA YAXŞI NÜMUNƏDİR

Balaxanı Sənaye Parkında tullantılardan müxtəlif növ məhsullar hazırlanır. Mütəxəssislər çox haqlı olaraq bildirirlər ki, Balaxanı Sənaye Parkı "yaşıl iqtisadiyyat" quruculuğuna yaxşı nümunədir.

Parkın rezidenti - "Ekokat" MMC işlənmiş mühərrik yağlarının emalı üzrə fəaliyyət göstərir. İnvestisiya qoyuluşu 1 milyon manat təşkil edən müəssisənin illik istehsal gücü 3000 tondur. Rezidentə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 200 min manat məbləğində güzəştli kredit vəsaiti verilib. Müəssisədə Türkiyə və Çin istehsalı olan emal avadanlıqları quraşdırılıb. Burada işlənmiş mühərrik yağlarının texnoloji və kimyəvi proseslərdən keçirməklə təkrar emalından 88% həcmdə yenidən istifadəyə yararlı mühərrik yağları istehsal etmək mümkündür. Bu yağlar iritutumlu nəqliyyat vasitələrinin və kənd təsərrüfatı texnikasının mühərriklərində istifadə üçün bütün standartlara cavab verir. İstehsal prosesi zamanı baza yağları ilə yanaşı, dizel yanacağı da əldə olunacaq ki, bu da istehsalın yanacağa olan tələbatının ödənilməsinə yönəldiləcək. Qalan neft qalıqları isə asfalt, ruberoid və s. istehsalında bitum əvəzedicisi kimi istifadə olunur.

Balaxanı Sənaye Parkında "Az.Ekol." MMC plastik (PET) butulkaların təkrar emalından plastik qırıntıların istehsalı üzrə fəaliyyət göstərir. Layihənin ümumi investisiya məbləği 1,5 milyon manat təşkil edir. İllik istehsal gücü 2400 tondur. İstehsal sahəsində 30-dan çox daimi iş yeri açılıb. İstehsal prosesi zamanı plastik butulkalardan alınan yüksək keyfiyyətli plastik qırıntıları xarici ölkələrə ixrac olunur. Gələcəkdə qırıntılardan son məhsul olan plastik ipliyin istehsal olunması planlaşdırılır.

Fərdi sahibkar Etibar Eminov Balaxanı Sənaye Parkında tullantı kağızlardan istifadə etməklə çap-poliqrafiya məhsulları istehsal edir. Layihənin ümumi investisiya məbləği 1 milyon manat təşkil edir. İllik istehsal gücü 348 tondur. "METAK" MMC tullantı-plastik məmulatların təkrar emalı nəticəsində müxtəlif plastik qablaşdırma məhsullarının istehsalı ilə məşğul olur. Ümumi investisiya dəyəri 17 mln. manat olan layihəyə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondundan 1,2 milyon manat güzəştli kredit vəsaiti ayrılıb. Müəssisədə Avropa, Türkiyə və Çindən alınmış istehsal xətləri quraşdırılıb. Zavodun illik istehsal gücü 12 min tondur. İstehsal sahəsində 140-dan çox daimi iş yeri açılıb.

Balaxanı Sənaye Parkının digər bir rezidenti - "FORİELLA" MMC süngər tullantılarının təkrar emalı və mebel istehsalı üzrə fəaliyyət göstərir. Ümumi investisiya məbləği 3,5 milyon manat olan müəssisənin yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondundan 2 milyon manat güzəştli kredit ayrılıb. Müəssisədə Almaniya və İtaliyadan alınmış avadanlıqlar quraşdırılıb. Müəssisənin illik istehsal gücü 100 min ədəd stul, 10 min masa təşkil edir. Müəssisədə 150 nəfər daimi işlə təmin olunub.

V.Quliyeva bildirib ki, sahibkarların marağı nəzərə alınaraq Balaxanı Sənaye Parkının fəaliyyət sahələri getdikcə genişləndirilir. Artıq Balaxanı Sənaye Parkında polietilen və polipropilen tullantılarının təkrar emalı, yapışqan lent (skoç), biodizel üçün xammal, kömür (aktiv kömür), gübrə və yem, plastik tor, meyvə-tərəvəz üçün qablaşdırma məmulatları istehsalı, polietilen tullantıların təkrar emalından qablaşdırma və etiket istehsalı, dəzgah və texnikaların regenerasiyası xidməti, tullantı taxta yonqarların emalından maqnezium oksid panellərin istehsalı sahələri üzrə fəaliyyət göstərəcək daha 10 rezident sənaye parkında qeydiyyata alınıb.

**Mübariz ABDULLAYEV**

# Heydər Əliyev Mərkəzinin parkında Bakının azad edilməsinin 100 illiyinə həsr olunan konsert keçiriləcək

Sentyabrın 15-də Heydər Əliyev Mərkəzinin parkında Bakının azad edilməsinin 100 illiyinə həsr olunan konsert keçiriləcək.

Heydər Əliyev Mərkəzindən AZƏRTAC-a bildirilib ki, konsert proqramında Azərbaycanın estrada müğənniləri və musiqi qrupları, həmçinin Türkiyənin məşhur "Anadolu atəşi" rəqs qrupu çıxış edəcək. Konsertdə Vətənə, Bakıya sevgini, Azərbaycan-Türkiyə qardaşlığını vəsf edən, eləcə də populyar mahnılar təqdim olunacaq.




Tədbirdə Azərbaycanın Xalq artistləri Aygün Kazımova, Eyyub Yaqubov, Əməkdar artistlər Lalə Məmmədova, Tünzalə Ağayeva, Sevda Ələkbərzadə, Səbinə Babayeva, həmçinin tanınmış ifaçılar Natəvan Həbibi, Ceyhun Zeynalov, Murad Arif, "Qaya" və "Rast" qrupları çıxış edəcəklər. Türkiyənin məşhur "Anadolu atəşi" qrupu əsrarəngiz rəqslərlə gecəyə xüsusi rəng qatacaq.

Tədbir 20:00-da başlayacaq. Konsertə giriş sərbəstdir.

# "Jewish Journal" nəşri əslən Bakıdan olan görkəmli alim Lev Landau haqqında yazıb




Amerikada çıxan "Jewish Journal" nəşrində Azərbaycan dağ yəhudiləri icmasının rəhbəri Milix Yevdayevin məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, "Lev Landau: Azərbaycandan olan, Nobel mükafatına layiq görülmüş dahi yəhudi fizik" sərlövhəli materialda əslən Bakıdan olan görkəmli alim Lev Landaunun həyatından və elmi nailiyyətlərindən bəhs edilir. Müəllif yazır ki, Landau 1962-ci ildə maye heliumun kondensasiyalı vəziyyətinin novator nəzəriyyələrinə görə fizika üzrə Nobel mükafatına layiq görülüb.

Landau 1908-ci il yanvarın 22-də Azərbaycanın paytaxtı Bakıda yəhudi ailəsində anadan olub. Onun atası Bakıda neft sənayesində çalışan görkəmli mühəndis idi, ixtisasca fizik olan anası isə Bakıdakı yəhudi orta məktəbində, habelə Bakı Dövlət Universitetində dərs deyib.

M.Yevdayev öz məqaləsində Landaunun elmi fəaliyyəti və bu yolda qazandığı uğurlar barədə söhbət açır. 1929-cu ildə Rokfeller Təqaüdü Fondunun dəstəyi ilə Avropaya on səkkiz aylıq elmi səyahətə çıxan Landau Almaniya, İsveçrə, Böyük Britaniya, Niderland, Belçika və Danimarkada tədqiqatlar aparıb, elmi konfranslarda iştirak edib.

Müəllif yazır ki, Landau öz mədəni tolerantlığı ilə məşhur olan Azərbaycanda doğulub və bir neçə il bu ölkədə yaşayıb. Bu diyarda cəmiyyətin bütün başqa üzvləri ilə bərabər hüquq və azadlıqlardan istifadə edən yəhudi uşaqlar öz məqsədlərinə doğru irəliləmək, məşhur alim olmaq imkanına malikdir. Azərbaycan Ali Məhkəməsinin hakimi Tatyana Qoldman, Azərbaycan parlamentinin deputatı Yevda Abramov, yəhudi həkim və alim Qavriil İlizarov, Azərbaycanın yəhudi millətindən olan digər tanınmış liderlərin və qəhrəmanların nümunəsi buna əyani sübutdur.

Lev Landau Azərbaycan xalqı və bu ölkədə yaşayan yəhudilər üçün həmişə qürur obyekti olub. Burada müxtəlif etnoslara mənsub olan, dini ənənələri fərqli olan insanlar əsrlər boyu sülh və həmrəylik şəraitində yaşayır. Bakıda görkəmli alimin doğulduğu binada xatirə lövhəsi vurulub. Bundan əlavə, Bakının mərkəzində ən gözəl küçələrdən birinə Landaunun adı verilib.

# Bakcell "ASAN Məktub"la uşaqların xəyallarını gerçəkləşdirməyə davam edir

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti növbəti dəfə "ASAN Könüllüləri" təşkilatının "ASAN Məktub" təşəbbüsünə qatılıb.

Layihə çərçivəsində Təhsil Nazirliyi və "ASAN xidmət"in birgə təşəbbüsü olan "Məktəblinin dostu" layihəsinin də tərəfdaşlığı ilə xüsusi aksiya təşkil olunub. "Bilik Günü" münasibətilə keçirilmiş bu aksiyanın əsas məqsədi yeni tədris ilinin başlaması ilə əlaqədar, www.asanmektub.az saytında öz arzularını yerləşdirmiş uşaqları sevindirmək, onların arzu və istəklərini reallaşdırmaqdır.

Bu münasibətlə, Bakcell nümayəndələri və ASAN Könüllülərin iştiraki ilə xüsusi tədbir təşkil edilib və aztəminatlı ailələrdən olan 50-dən çox 1-9 sinif şagirdinə məktəb çantası və ləvazimatları hədiyyə olaraq verilib.



"ASAN Məktub" layihəsinin əsas məqsədi həssas qruplara aid olan uşaqlara sevinc bəxş etmək və cəmiyyətdə sosial məsuliyyət və qayğı hissini daha da artırmaqdır. Bakcell şirkəti artıq 2 ildən çoxdur ki, bu layihəyə dəstək göstərir. Bu müddət ərzində "Bakcell"in dəstəyi ilə Bakı və Azərbaycanın bölgələrində (Lahic, Qəbələ, Şirvan, Neftçala) 500-ə yaxın uşağın arzusu gerçəkləşdirilib. Uşaqların saf arzularını reallığa çevirən bu layihə www.asanmektub.az internet səhifəsi vasitəsilə 14 yaşadək olan uşaqları əhatə edir. Layihə çərçivəsində uşaqların yazdığı məktublar sayta yerləşdirilir və onların istəkləri xeyirxah vətəndaşlar tərəfindən reallaşdırılır. Layihənin mobil rabitə dəstəyi isə Bakcell şirkəti tərəfindən təmin edilir.

Xüsusi qayğıya ehtiyacı olan və həssas qruplara aid uşaqları daim diqqət mərkəzində saxlayan Bakcell şirkəti uşaqlara sevinc bəxş etmək və onlara qayğı və diqqətini göstərmək üçün davamlı şəkildə "ASAN Məktub" layihəsi və bu sahədə həyata keçirilən digər təşəbbüslərə dəstək göstərir.

# "Nar"-dan Bilik günü münasibətilə müsabiqə




"Nar" 15 sentyabr - Bilik günü münasibətilə daha bir müsabiqə keçirir. "Nar" abunəçiləri internet üzərindən keçirilən "Məktəb illərini yada sal" müsabiqəsində iştirak etməklə, həm öz biliklərini sınaya, həm də qalib gələrək internet bonusları və hədiyyələr qazana bilərlər. Müsabiqə sentyabrın 14-ü saat 18:00-da başlayacaq və 16 sentyabr saat 23:59-da yekunlaşacaq.

"Nar"-ın sosial şəbəkə hesablarında keçirilən müsabiqəsində digər mobil operatorların abunəçiləri də iştirak edə bilər. "Nar" abunəçisi müsabiqənin qalibi olduğu təqdirdə, 100 MB qazanacaq. Maksimum nəticə göstərən ilk 20 nəfərə isə mobil operator tərəfindən əlavə olaraq xüsusi hədiyyələr veriləcək.

Nəticələr 17 sentyabrda elan olunacaq və iştirakçılara elə həmin gün SMS göndəriləcək. Müsabiqədə bu keçid vasitəsilə iştirak etmək olar: https://www.nar.az/mekteb-illeri.html

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU